

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 177 (8493) CÜMƏ, 4 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Xalqın inandığı və güvəndiyi LİDER

## Son sosial sorğu vətəndaşların Prezident İlham Əliyevə etimadının daha da yüksəldiyini təsdiq edir

Koronavirus infeksiyası bütün ölkələri sınaq qarşısında qoydu. Reallıq ondan ibarətdir ki, heç də hər ölkə bu sınaqdan layiqli şəkildə çıxa bilmədi. Azərbaycan isə koronavirus pandemiyası dövründə ayrı-ayrı beynəlxalq təşkilatlar tərəfindən nümunə olaraq göstərildi. Respublikamız nəinki virusla mübarizənin uğurlu modelini yaratdı, həmçinin müxtəlif dövlətlərə dəstəyini əsirgəmədi. Təbii ki, bütün bunların təməlində Prezident İlham Əliyevin düşünülmüş, əsaslandırılmış və qətiyyətli siyasəti dayanır.

### Əmin-amanlığın və qanunçuluğun başlıca təminatı

Ümumiyyətlə, dünyada hökm sürən koronavirus pandemiyasına qarşı mübarizədə siyasi liderlik, dövlətin potensial resurs, güc və imkanlarını səfərbər etmək bacarığı, ictimai inam və etimadın qorunub saxlanmasının, milli birliyin təmin olunmasının başlıca şərtinə çevrilib. Bu baxımdan reallıq göstərir ki, Prezident İlham Əliyev dünya tarixinin ən böyük sınaqlarından, bir sıra hallarda "müharibə" adlandırılan çətin imtahandan öz xalqının çıxması üçün bütün təhlükələri üzərinə götürməyi, qeyri-standart şəraitdə meydana gələn problemləri həll etməyi bacarır. İlham Əliyev böhrana qarşı dayanıqlı xarakter, möhkəm iradə göstərdi və buna görə də onun xarizması, nüfuzu xalq içərisində güclü olaraq qalır. Bu nüfuz əmin-amanlığın, iqtisadi-siyasi və mənəvi yeniləşmənin, qanunçuluğun və ən başlıcası, 2019-cu ildən daha böyük miqyasda həyata keçirilən yeni hakimiyyət quruculuğu siyasətinin başlıca təminatıdır.

Eyni sözləri Birinci vitse-prezident Mehriban Əliyeva haqqında da söyləmək mümkündür. Həmişə olduğu kimi, pandemiya dövründə də Mehriban Əliyeva ölkə həyatının bütün sahələrində Prezidentlə çiyin-çiyinə addımlayır, öz fəaliyyəti ilə hər zaman xalqın yanında olur.

Bütün bunlar əhali tərəfindən yüksək qiymətləndirilir. Sosial Tədqiqatlar Mərkəzinin ictimai rəyin öyrənilməsi məqsədilə keçirdiyi növbəti sorğu da bunu təsdiqləyir. Mərkəzin "Pandemiya ilə mübarizədə dövlətin antiböhran siyasəti ictimai rəydə" mövzusunda keçirdiyi sosioloji sorğu əsasında hazırladığı növbəti analitik hesabat 2020-ci ilin ikinci rübünü - aprel-iyun aylarını əhatə edir. Hesabatda ölkə Prezidentinin bəhs edilən müddətdə həyata keçirdiyi çoxşaxəli fəaliyyətinə ictimai münasibətin monitorinqi, əvvəlki dövrlə müqayisəli dinamikası və təhlili öz ifadəsini tapıb. Eyni zamanda hesabatda dövlətin pandemiyanın makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə həyata keçirdiyi təxirəsalınmaz sosial dəstək tədbirlərinə münasibət göstəriciləri ictimai rəy əsasında qiymətləndirilib.

### Prezidentin fəaliyyətinin yüksək qiymətləndirildiyini göstərən nəticələr

Sorğunun nəticələri göstərir ki, respondentlərin mütləq əksəriyyətinin Prezident İlham Əliyevə inam və etimadı yüksək olaraq qalır. Belə ki, rəyi öyrənilənlərin 70 faizi dövlət başçısına inam və etmadının yüksək olduğunu, 24.6 faizi isə inam və etimadının artdığını qeyd edib.

Digər istiqamətlərə gəldikdə, sorğunun nəticələri əhalinin ordu quruculuğu istiqamətində Prezidentin fəaliyyətini kifayət qədər yüksək qiymətləndirdiyini göstərir.

Ardı 4-cü səh.

## "Tək millət, iki dövlət. Bütün dünyaya örnək"

### Prezident İlham Əliyevin Türkiyəyə dəstək mesajı qardaş ölkə mətbuatının əsas gündəm mövzusu oldu

Azərbaycan qonşu dövlətlərlə milli maraqlar əsasında qarşılıqlı əməkdaşlığını genişləndirməkdə, onlarla əlaqələrini strateji tərəfdaşlıq səviyyəsinə yüksəltməkdədir. Qeyd edilən məqamlar özünü xüsusən eyni tarixi kökə, mədəniyyətə malik olan Azərbaycan-Türkiyə münasibətlərində daha aydın büruzə verir. Azərbaycan və Türkiyə dostluq və qardaşlıq münasibətlərindən irəli gələrək, hər iki ölkə bölgədə və dünyada gedən proseslərə münasibətdə həmişə eyni mövqe sərgiləyib, ortaq maraqlardan çıxış edib.

Dünya siyasi düzəninin indiki şəraitində isə hər iki ölkənin bölgədə və dünyada gedən proseslərə vahid prizmadan yanaşmaları, xüsusən ərazi bütövlüyü kimi həssas məsələlərdə bir-birilərinin maraqlarını müdafiə etmələri daha mühüm əhəmiyyət kəsb edir. Təqdirəlayiq haldır ki, iki ölkənin siyasi rəhbərliyi indiki şəraitdə daha prinsipial mövqe nümayiş etdirir.

Bu mənada Prezident İlham Əliyevin sentyabrın 2-də Yunanıstanın Azərbaycandakı yeni səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul edərkən Türkiyəyə dəstəklə bağlı söylədiyi fikirlər qardaş ölkədə böyük razılıqla qarşılanıb. Azərbaycan Prezidentinin "Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik" fikirləri həm sosial mediada, həm də tirajlanan bir neçə yüz minlik qəzetlərin manşet mövzusu olub. Aparıcı televiziya şirkətləri, internet portalları bu mövzu ətrafında materiallar təqdim ediblər. Onlardan bəzilərini diqqətinizə çatdırırıq.

Ardı 3-cü səh.

## Müasir standartlara cavab verən və 3 min tələbənin təhsil ala biləcəyi yeni tədris korpusu inşa edilib



Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Bakının Yasamal rayonundakı 3 saylı tədris korpusu yenidən inşa olunaraq istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Murtuza Muxtarov küçəsində yerləşən yeni tədris korpusunun açılışında iştirak ediblər.

Ardı 2-ci səh.

## Bakıda Uşaq İncəsənət Məktəbinin əsaslı təmirdən sonra açılışı olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 3-də Bakının Yasamal rayonundakı Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbinin əsaslı təmirdən sonra açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım əsaslı təmirdən sonra binada yaradılan şəraitlə tanış oldular.

Ardı 2-ci səh.

## İlham Əliyevdən növbəti diplomatiya dərsi, qətiyyət və cəsarət örnəyi

### Prezident Yunanıstanın Azərbaycana və Türkiyəyə qarşı mövqeyini sərt tənqid etdi, münasibətlərin müsbət məcraya yönəlməsinin konturlarını göstərdi

Azərbaycanın son illər beynəlxalq imicinin yüksəlməsi, respublikamızın ən ali səviyyəli tədbirlərdə ön cərgədə iştirakı, qlobal miqyasda ölkəmizin rəyi ilə hesablaşılması və digər belə qürurverici olaylar, əlbəttə ki, hansısa təbii proseslərin nəticəsi deyil. Bu nailiyyətlər birbaşa olaraq ölkə liderinin - cənab İlham Əliyevin fövqəladə fəaliyyətinin, nümayiş etdirdiyi qeyri-adi əzmkarlığının, rəhbərlik qabiliyyətinin, yüksək diplomatik bacarığının, ən əsası isə, qətiyyət və cəsarətinin məntiqi yekunudur.

Bu gün dünyada olduqca gərgin, ziddiyyətli və qarışıq proseslərin getdiyi, qlobal trendlərdə qeyri-müəyyənliyin hökm sürdüyü mərhələdə tam müstəqil siyasət yürüdən cənab İlham Əliyev qətiyyətli, prinsipial mövqeyi, diplomatik bacarığı ilə həm də XXI əsrin siyasi liderləri üçün zəruri olan strateji və kreativ təfəkkür sahibi olduğunu təsdiqləyir. Sentyabrın 2-də həm ölkə ictimaiyyəti, həm də beynəlxalq birlik Azərbaycan Prezidentinin diplomatik bacarığının, qətiyyətinin daha bir parlaq nümunəsinə şahidlik etdi.

### İlham Əliyev Yunanıstanla təmasların kəsilməsinin əsl səbəblərini açıqladı

Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul edərkən cənab İlham Əliyev Azərbaycan-Yunanıstan münasibətlərinin dünəni, bu günü və faktiki tam dayanmış hala qədər keçdiyi yola dair bütün məqamlara aydınlıq gətirdi. İlham Əliyev əsl həqiqəti birbaşa yunan səfirin üzünə söylədi. Yunanıstanın əvvəlki hakimiyyətinə qarşı səsləndirdiyi sərt ittihamlar, onların real faktlarla tam ifşası, əlbəttə ki, diplomatiya dərsi, növbəti qətiyyət və cəsarət örnəyi idi!..

Ardı 3-cü səh.



## Azərbaycan dövlətinin ali məqsədi vətəndaşlarının sağlamlığı və təhlükəsizliyidir

### Ölkəmiz COVID-19-la mübarizədə uğurlu işlər görür, qəbul edilmiş qərarlar vaxtında və yüksək keyfiyyətlə icra olunur

Dünyada koronavirusa yoluxanların sayı sürətlə 30 milyona yaxınlaşır. Bir neçə il əvvəl ölkələrdə tədbiq edilən sərt karantin rejimi sayəsində virusa yoluxma sayında müəyyən azalmalar müşahidə edilsə də, məhdudiyyətlərin digər sahələrdə ciddi fəsadlara yol açmasının, xüsusilə də iqtisadiyyata inanılmaz zərbə vurduğunun şahidi olduq.

Buna görə də hazırda Ümumdünya Səhiyyə Təşkilatı ölkələrə epidemioloji vəziyyətin təhlilinə əsasən, mərhələli şəkildə yumşaldılmalara keçid etməyi tövsiyə edir. Amma bu zaman insanlar mütləq şəkildə hazırkı həyat və yaşamlarını pandemiyanın şərtlərinə uyğunlaşdırmalıdırlar. Bu şərtlər isə çox sadədir: sosial məsafə, maska taxmaq və gigiyena şərtlərinə əməl etmək...

Koronavirusun ilk üzə çıxdığı zamandan etibarən Azərbaycan dövləti vətəndaşlarının sağlamlığı və təhlükəsizliyini özünün ən ali məqsədi və vəzifəsi hesab edərək bütün potensialını pandemiyaya qarşı mübarizəyə yönəldib. Bu istiqamətdə həyata keçirilən kompleks tədbirlər ölkəmizdə qlobal böhranın təsirlərinin minimuma endirilməsi məqsədi daşıyır və yarım ildən çox zamanı əhatə edən bu dövrdə görülən tədbirlər, atılan addımlar mövcud vəziyyətə uyğun həyata keçirilir.

Qısa zamanda səhiyyə infrastrukturunun pandemiya ilə mübarizəyə istiqamətləndirilməsi, xəstələrin dövlət hesabına müalicəsi ilə yanaşı, həkimlərin sayının artırılması və təcrübə mübadiləsi məsələləri də kompleks şəkildə həll olunub.

Ardı 7-ci səh.

# Bakıda Uşaq İncəsənət Məktəbinin əsaslı təmirdən sonra açılışı olub

*Əvvəli 1-ci səh.*





Məlumat verildi ki, Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbinin yerləşdiyi bina 1904-cü ildə inşa edilib. Ötən 116 ildə bina müxtəlif dövrlərin reallıqlarını yaşayıb: hospital, ümumtəhsil məktəbi, 1940-cı ildən isə musiqi məktəbi kimi fəaliyyət göstərib. Binanın memarlıq üslubu və fasadının ilkin görünüşü saxlanılmaqla Heydər Əliyev Fondu tərəfindən 2020-ci ildə əsaslı təmir olunub.

Hazırda məktəbdə fortepiano, skripka, gitara, klarnet, saksofon, vokal, xanəndə, tar, kamança, qarmon, nağara, rəssamlıq, xoreoqrafiya, nəzəriyyə və tədris köməkçi fənləri ixtisasları üzrə 385 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 78 müəllim məşğul olur. Məktəbin səs izolyasiyasına xüsusi diqqət yetirilən bütün tədris otaqları əyani vəsaitlərlə təmin olunub. İncəsənət məktəbinin ikimərtəbəli binasında 15 fərdi tədris otağı, nəzəriyyə otaqları, kitabxana, dərzi otağı, konfrans zalı, rəssamlıq otaqları, xoreoqrafiya zalı, yeməkxana və səsyazma studiyası fəaliyyət göstərir. Məktəbdə Vaqif Mustafazadə guşəsi yaradılıb. Vaqif Mustafazadənin şəxsi əşyalarının olduğu bu guşədən həm də tədris otağı kimi istifadə ediləcək.

Qeyd edək ki, dünya şöhrətli caz ustası Vaqif Mustafazadə 1949-1956-cı illərdə burada fortepiano ixtisası üzrə təhsil alıb. Azərbaycanın bir sıra görkəmli bəstəkarları və incəsənət xadimləri bu məktəbin yetirmələri olublar.





# Müasir standartlara cavab verən və 3 min tələbənin təhsil ala biləcəyi yeni tədris korpusu inşa edilib



*Əvvəli 1-ci səh.*

Dövlət başçısı və birinci xanım tədris korpusunda yaradılan şəraitlə tanış oldular.

Təhsil naziri Emin Əmrullayev və UNEC-in rektoru Ədalət Muradov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, tikintisinə 2018-ci ildən başlanılan və müasir standartlara cavab verən yeni tədris korpusu köhnə binanın fasadı saxlanılmaqla inşa edilib. Müasir kampus standartlarına cavab verən, modern memarlıq elementləri ilə zəngin olan, 4 binadan ibarət yeni tədris korpusunda texniki və texnoloji ixtisaslar üzrə 3 min tələbə təhsil ala biləcək. Binada 30 auditoriya, 6 mühazirə, 6 linqafon otağı, ən müasir texnoloji avadanlıqla təchiz olunan 14 laboratoriya, geniş idman zalı, ikimərtəbəli kitabxana, böyük və kiçik konfrans zalları var. Burada təlim-tədrisi yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb.







## “Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası”nın və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Nazirlər Kabinetinin fəaliyyətinin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının strukturunun təsdiq edilməsi haqqında” 2017-ci il 23 avqust tarixli 1583 nömrəli və 2018-ci il 17 may tarixli 76 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 noyabr tarixli 860 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

“Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası”nın və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1794) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası” üzrə:

1.1. 1.4-cü bənddən “, bir qayda olaraq,” sözləri çıxarılsın;

1.2. 1.7-ci bəndə “publik hüquqi şəxslərə” sözlərindən sonra “, qeyri-kommersiya hüquqi şəxslərinə” sözləri əlavə edilsin;

1.3. 1.8-ci bəndin birinci cümləsinə “Nazirlər Kabineti” sözlərindən sonra “Azərbaycan Respublikası qanunlarının,” sözləri əlavə edilsin;

1.4. 2.1-ci bənddən “, müşavirələrin” sözü çıxarılsın;

1.5. 3.3-cü bəndin birinci cümləsinə birinci halda “Nazirlər Kabinetinin” sözlərindən əvvəl “iclasda iştirak edəcək” sözləri əlavə edilsin;

1.6. 3.5-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin və ikinci - üçüncü cümlələr müvafiq olaraq üçüncü - dördüncü cümlələr hesab edilsin:

“Azərbaycan Respublikası Prezidentinin sədrlik etdiyi hallar istisna olmaqla, Nazirlər Kabinetinin iclasında gündəlikdəki məsələyə aidiyyəti olan Nazirlər Kabinetinin üzvləri iştirak edirlər.”;

1.7. 3.9-cu bənddə “Nazirlər Kabineti” sözləri “Nazirlər Kabinetinin, bu Qaydanın 3.5-ci bəndi nəzərə alınmaqla iclasda iştirak edəcək” sözləri ilə əvəz edilsin;

1.8. 3.10-cu bəndin birinci cümləsinə “iclasında” sözündən sonra “iştirak edən” sözləri əlavə edilsin;

1.9. 3.19-cu bəndə “tapşırığı ilə” sözündən sonra “və ya Baş Nazirin təşəbbüsü ilə” sözləri əlavə edilsin;

1.10. 5.1-ci bəndə “icrasının təşkili” sözlərindən sonra “, həmçinin Nazirlər Kabinetinin aktlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikası Prezidentinin aktlarına uyğunlaşdırılması” sözləri, “rəhbərinə,” sözündən sonra “Nazirlər Kabineti Aparatının struktur bölmələrinin rəhbərlərinə,” sözləri əlavə edilsin;

1.11. 5.11-ci bəndin birinci cümləsinə “orqanın” sözündən sonra “(qurumun)” sözü əlavə olunsun və həmin bəndə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Tapşırığın icrası ilə bağlı icraçılar arasında fikir ayrılığı olduqda, bu Əsasnamənin 6.4 - 6.7-ci bəndlərinin müddəaları tətbiq edilir.”;

1.12. 5.12-ci bənd aşağıdakı redaksiyada verilsin:

“5.12. Azərbaycan Respublikası Prezidentinin Nazirlər Kabinetinə verdiyi tapşırığın icrası ilə bağlı Baş Nazir və ya onun müavinləri tərəfindən müəyyən edilən əsas icraçı hazırladığı təklifləri həmin tapşırığın icrası məqsədilə Nazirlər Kabinetinin qəbul etdiyi aktlarda, habelə Baş Nazir və ya onun müavinlərinin müəyyən etdiyi icra müddətində Baş Nazirə və ya onun müavinlərinə təqdim edir.”;

1.13. 6.5-ci bənddə “və dövlətin hüquqi şəxsinin (şəxslərinin) nümayəndələrinin” sözləri “, dövlətin hüquqi şəxsinin (şəxslərinin) və digər aidiyyəti qurumların rəhbərlərinin (müavinlərinin) və ya nümayəndələrinin” sözləri ilə əvəz edilsin;

1.14. 6.6-cı bənddə “bu barədə” sözlərindən sonra “Baş Nazirin müavini və ya Nazirlər Kabineti Aparatının rəhbəri tərəfindən” sözləri əlavə edilsin;

1.15. 7.3-cü bəndin üçüncü cümləsində “və qeyri-hökumət təşkilatlarının” sözləri “, qeyri-hökumət təşkilatlarının və digər qurumların” sözləri ilə əvəz edilsin;

1.16. 12.2-ci bənddən “həftənin müəyyən günlərində” sözləri çıxarılsın.

2. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə” üzrə:

2.1. 1.1-ci bənddə “kateqoriyalı” sözü “kateqoriya” sözü ilə əvəz edilsin;

2.2. 1.3-cü bəndə “orqanları” sözündən sonra “və digər dövlət orqanları (qurumları)” sözləri əlavə edilsin;

2.3. 3.0.4-cü yarımbəndə “layihələrini” sözündən sonra “, həmçinin barəsində müvafiq aktların qəbul edilməsi tələb olunmayan məsələlərlə bağlı təklifləri” sözləri əlavə edilsin;

2.4. aşağıdakı məzmunda 3.0.4-1-ci yarımbənd əlavə edilsin:

“3.0.4-1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikası Prezidentinin aktlarına uyğunlaşdırılmasını təmin etmək;”;

2.5. 3.0.7-ci yarımbəndə “Prezidentinin” sözündən sonra “Nazirlər Kabinetinə həvalə etdiyi vəzifələrin” sözləri əlavə edilsin;

2.6. 3.0.12-ci yarımbəndə birinci halda “Nazirlər Kabinetinin” sözlərindən əvvəl “iclasda iştirak edəcək” sözləri əlavə edilsin;

2.7. 3.0.16-cı yarımbəndə birinci halda “Azərbaycan Respublikası Prezidentinin” sözlərindən əvvəl “Azərbaycan Respublikası qanunlarının,” sözləri əlavə edilsin;

2.8. 3.0.18-ci yarımbəndə “maliyyə,” sözündən sonra “hüquqi,” sözü əlavə edilsin;

2.9. 3.0.33-cü yarımbəndə “internet saytının” sözlərindən sonra “və sosial şəbəkələrdəki səhifələrinin” sözləri, “saytda” sözündən sonra “və sosial şəbəkələrdəki səhifələrdə” sözləri əlavə edilsin;

2.10. 4.0.3-cü yarımbəndə “layihələrini” sözündən sonra “, habelə barəsində müvafiq aktların qəbul edilməsi tələb olunmayan məsələlərə dair təkliflər” sözləri əlavə edilsin;

2.11. 4.0.5-ci yarımbəndə “qeyri-hökumət təşkilatları” sözlərindən əvvəl “Baş Nazirin razılığı və ya tapşırığı ilə” sözləri əlavə edilsin;

2.12. 4.0.11-ci yarımbəndə “yaxşılaşdırılması” sözündən sonra “və onların təltif edilməsi” sözləri əlavə edilsin;

2.13. 5.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

“5.8. Nazirlər Kabineti Aparatının rəhbərinin iki müavini vardır. Nazirlər Kabineti Aparatının rəhbərinin müavinləri Nazirlər Kabineti Aparatının rəhbəri tərəfindən onlara həvalə olunmuş vəzifələri yerinə yetirirlər və buna görə şəxsən məsuliyyət daşıyırlar.”;

2.14. 5.9.1-ci yarımbənddə “müavininin” sözü “müavinlərinin” sözü ilə əvəz edilsin;

2.15. 5.9.5-ci yarımbəndə “verilməsi” sözündən sonra “, həmçinin razılaşdırılması” sözləri əlavə edilsin;

2.16. 5.9.7-ci yarımbənddə “daxili strukturunu” sözləri “ştat cədvəlini” sözləri ilə, “habelə ştat cədvəlini” sözləri “təsdiq edilmiş ştat cədvəli” sözləri ilə əvəz edilsin;

2.17. 5.9.9-cu yarımbəndə “Prezidentinin” sözündən sonra “Nazirlər Kabinetinə həvalə etdiyi vəzifələrin, habelə” sözləri əlavə edilsin;

2.18. 5.9.12-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“5.9.12. Nazirlər Kabineti Aparatının struktur bölmələri tərəfindən Baş Nazirə və onun müavinlərinə təqdim edilən hüquqi aktların layihələrinə və digər sənədlərə viza verir;”;

2.19. 5.9.15-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“5.9.15. Baş Nazirin tapşırığı, habelə Nazirlər Kabineti Aparatının müvafiq struktur bölmələrinin müraciətləri əsasında mərkəzi icra hakimiyyəti orqanlarının, yerli icra hakimiyyəti orqanlarının, dövlətin hüquqi şəxslərinin, habelə digər aidiyyəti qurumların rəhbərlərinin (müavinlərinin) və ya nümayəndələrinin iştirakı ilə müzakirə aparır;”;

2.20. 5.10-cu bənddə “onun səlahiyyətlərini Nazirlər Kabineti Aparatının rəhbərinin” sözləri “Nazirlər Kabineti Aparatının rəhbərinin səlahiyyətlərini onun müəyyən etdiyi” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2020-ci il*

## BERNAMA agentliyi: “Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkəsinin inkişafına böyük töhfələr verir”




Malayziyanın BERNAMA dövlət informasiya agentliyi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva barədə məqalə yayıb.

“Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkəsinin inkişafına böyük töhfələr verir” sərlövhəli məqalədə Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətindən bəhs edilir, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr diqqətə çatdırılır.

AZƏRTAC-ın “Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır” sərlövhəli məqaləsi əsasında hazırlanan yazıda bildirilir ki, Mehriban Əliyevanın fəaliyyəti beynəlxalq aləmdə yüksək qiymətləndirilir, o, bir sıra beynəlxalq təşkilatların və ölkələrin yüksək mükafatlarına layiq görülüb.

Birinci vitse-prezident Azərbaycanın inkişafına, ölkənin beynəlxalq miqyasda tanıdılmasına, xalqın sosial problemlərinin həllinə mühüm töhfələr verir.

Yazıda vurğulanır ki, gördüyü işlər Mehriban Əliyevaya Azərbaycan xalqının böyük hörmət və məhəbbətini, inam və etimadını qazandırıb.

Qeyd edək ki, Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti barədə məqalələr AZƏRTAC-a istinadla Çinin “China Daily” qəzeti, Avropa İttifaqının “EU Politics”, İtaliyanın “Eurasianews” portalları, Avropa Xəbər Agentliyi, Türkiyənin, Qazaxıstanın, Rumıniyanın, Moldovanın, Bolqarıstanın, Xorvatiyanın, İndoneziyanın, Yunanıstanın, Rusiyanın, Qırğızıstanın, Özbəkistanın, Yaxın Şərq və Şimali Afrika ölkələrinin kütləvi informasiya vasitələri tərəfindən də yayılıb.

## İlham Əliyevin növbəti diplomatik gedişi Türkiyə mətbuatında

# “Tək millət, iki dövlət. Bütün dünyaya örnək”

## Prezident İlham Əliyevin Türkiyəyə dəstək mesajı qardaş ölkə mətbuatının əsas gündəm mövzusu oldu

*Əvvəli 1-ci səh.*

Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun “Twitter” sosial hesabında “Çox təşəkkürlər edirəm, cənab Prezident! Can Azərbaycanın dəstəyinə heç vaxt şübhəmiz olmadı. Türkiyə də həmişə tərəddüdsüz Azərbaycanın yanında olacaq” fikirləri dəfələrlə “retweet” edilib.

Türkiyə Prezident Administrasiyasının sözçüsü İbrahim Kalın “Twitter” sosial şəbəkəsində Prezident İlham Əliyevin yunan səfiri ilə görüşü zamanı qardaş ölkə barədə sərgilədiyi mövqeyini paylaşıb. “Tək millət, iki dövlət. Bütün dünyaya örnək...” başlığı ilə edilən paylaşımın altında Azərbaycan dövlət başçısının “Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik” ifadəsi də əks olunub.

“Milliyet” qəzetinin “Azərbaycandan Türkiyəyə Şərqi Aralıq dənizi dəstəyi” başlıqlı xəbərində İlham Əliyevin fikirlərinə geniş yer verilərək vurğulanır ki, Türkiyə-Azərbaycan qardaşlığı səmimi əməkdaşlığa söykənir. Prezident İlham Əliyevin “Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir. Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik. Biz eyni dəstəyi türk qardaşlarımızdan da görürük” fikirlərinin yer aldığı xəbərdə deyilir ki, Azərbaycan ilə Türkiyə arasında siyasi, iqtisadi əlaqələr və digər sahələrdəki əməkdaşlıq hazırda elə bir yüksək mərhələdədir ki, bunları həmin ölkələrin cəmiyyətlərinə anlatmağa, eləcə də dünyaya izah etməyə heç bir ehtiyac yoxdur.

“Sabah” qəzeti “İlham Əliyev: Türkiyəni tərəddüdsüz dəstəkləyirik” başlıqlı xəbərini manşetə çıxarıb. Bildirilir ki, Azərbaycanla Türkiyə aralarında münasibətlərin nə dərəcədə yüksək səviyyədə qurulduğunu, tərəflərin mühüm əhəmiyyət kəsb edən maraqlar ətrafında hər zaman bir-birini müdafiə etməyə hazır olduqlarını həmişə göstərib. Azərbaycan Prezidentinin “Sizə bir daha deyə bilərəm ki, Türkiyə bizim üçün təkcə dost yox, qardaş ölkədir və türklər bizim qardaşlarımızdır. Beləliklə, bütün məsələlərdə biz onların yanında olacağıq” fikirlərini xüsusi olaraq diqqətə çatdırıblar.




“Hürriyet” qəzeti “Azərbaycan Prezidenti İlham Əliyevdən Şərqi Aralıq dənizi mesajı” başlıqlı xəbərində isə Azərbaycan ilə Türkiyənin dünya miqyasında bir-birinə ən yaxın ölkələr olduğunu, əməkdaşlığın bütün sahələrdə inkişaf etdirildiyini, Azərbaycan-Türkiyə münasibətlərinin həm regionda, həm də regiondan kənarda böyük önəm daşıdığını qeyd edib. Azərbaycan lideri İlham Əliyevin dediyi “Türkiyə bizim üçün təkcə dost yox, qardaş ölkədir və türklər bizim qardaşlarımızdır. Beləliklə, bütün məsələlərdə biz onların yanında olacağıq” fikrinin yer aldığı məqalədə Türkiyə-Azərbaycan münasibətlərinin həm iki ölkə üçün, həm də region üçün çox önəmli rol oynadığı xüsusi vurğulanıb.

“Sözcü” qəzeti isə “Azərbaycandan Türkiyəyə Şərqi Aralıq dənizi dəstəyi” başlıqlı xəbərində Prezident İlham Əliyevin fikirlərini ön plana çıxarıb. Bildirilib ki, növbəti dəfə sübut olundu ki, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu və strateji müttəfiqliyi sarsılmaz və əbədidir...

Anadolu Xəbər Agentliyi “Azərbaycan Prezidenti İlham Əliyevdən Yunanıstana tənqid, Türkiyəyə dəstək” başlıqlı xəbərində Azərbaycan dövlət başçısının çıxışını ön plana çıxarıb. Qeyd olunub ki, elə bir məsələ olmayıb ki, Azərbaycan öz dəstəyini Türkiyəyə göstərməsin. Hazırda bölgədə gedən bütün proseslərdə birmənalı şəkildə Azərbaycan dövləti və Azərbaycan xalqı Türkiyə dövlətinin və xalqının yanındadır.

“TRT Haber” kanalı “Türklər bizim qardaşımızdır” başlıqlı xəbər yayımlayıb. Bildirilib ki, Prezident İlham Əliyev Yunanıstanın Azərbaycandakı yeni səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul edərkən Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir deyib: “Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik. Biz eyni dəstəyi türk qardaşlarımızdan da görürük. Onlar Azərbaycanı bütün məsələlərdə dəstəkləyirlər və biz onları bütün məsələlərdə dəstəkləyirik, o cümlədən Şərqi Aralıq dənizində kəşfiyyat məsələsi ilə bağlı”.

“Takvim”, “Akşam”, “Star” qəzetləri, CNN TÜRK, A HABER, TGRT HABER, HABER GLOBAL televiziya kanalları, “euronews.com”, “ensonhaber.com”, “bursahaber.com”, “lidergazetesi.com”, “haberler.com” və s. xəbər agentliklərində yer alan materiallarda da Prezident İlham Əliyevin “Ermənistan ilə hərbi əməkdaşlıq Azərbaycana qarşı ciddi təhdiddir”, “Bütün hallarda Türkiyəni dəstəkləyirik”, “Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir”, “Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik”, “Biz eyni dəstəyi türk qardaşlarımızdan da görürük” fikirləri yer alıb.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

---

*Əvvəli 1-ci səh.*

# İlham Əliyevdən növbəti diplomatiya dərsi, qətiyyət və cəsarət örnəyi

## Prezident Yunanıstanın Azərbaycana və Türkiyəyə qarşı mövqeyini sərt tənqid etdi, münasibətlərin müsbət məcraya yönəlməsinin konturlarını göstərdi

Öncə Prezident iki ölkə arasındakı bugünkü duruma aydınlıq gətirdi: “Son bir neçə il aramızda çox aşağı səviyyədə əməkdaşlıq illəri olub. Əvvəlki vaxtlarda bizim daha fəal təmaslarımız olub. Bildiyiniz kimi, mən sizin ölkənizə rəsmi səfər etmişəm, Yunanıstanın iki prezidenti Azərbaycanda rəsmi səfərdə olub, Baş Nazir səfərdə olub. Lakin Yunanıstanın əvvəlki hökuməti hakimiyyətə gələndən sonra bu təmaslar dayanıb və bu, Yunanıstan hökumətinin təşəbbüsü olub. Beləliklə, hazırda bizim faktiki olaraq aktiv təmaslarımız, nümayəndə heyətlərinin mübadiləsi yoxdur. Bizim gələcəkdə əməkdaşlığımızı necə planlaşdırmaq barədə düşünməyə ehtiyacımız var”.

Bu fikirlərdən bir daha aydın oldu ki, münasibətlərin indiki vəziyyəti üçün məsuliyyət daşıyan tək tərəf Yunanıstandır. Azərbaycan hər zaman mövqeyinə sadiqlik nümayiş etdirib və etibarlı tərəfdaşlığını daim gücləndirməkdə maraqlı olub.

Ancaq Yunanıstanın əvvəlki hakimiyyətinin dəyişkən mövqeyi bu münasibətlərə xələl gətirdi. Prezident də bu əməkdaşlığa mənfi təsir göstərən bir neçə məsələni səfirin diqqətinə çatdırdı.

Onlardan biri Yunanıstanın qaz şirkəti “DESFA” ilə əlaqədardır. Belə ki, 6 il öncə SOCAR Yunanıstan hökumətinin müraciəti əsasında “DESFA”nı almaq üçün tenderə qoşulub. SOCAR-ın tender prosedurunda iştirak etməsini Yunanıstanın sabiq Baş Naziri cənab Samaras şəxsən Azərbaycan Prezidentindən xahiş edib. Açıq tender proseduru nəticəsində SOCAR ən yaxşı təklifi edib və “DESFA”ya sahib olmaq hüququnu qazanıb. Azərbaycan qiymətin 10 faizini təşkil edən 40 milyon avro məbləğində avans ödənişi edib və 4 il ərzində - 2014-cü ildən 2018-ci ilədək həmin vəsait Yunanıstan hökumətinin ixtiyarında olub. Lakin əfsuslar olsun ki, Yunanıstanın əvvəlki hökuməti SOCAR-ın bu hüququ itirməsi üçün hər şeyi edib. Nəticədə Azərbaycan bu legitim hüquqdan məhrum olub.

Əlbəttə ki, bu, onsuz da aşağı səviyyədə olan əlaqələrə ciddi təsirsiz ötüşmədi. Rəsmi Bakı Yunanıstan hökumətinin belə davranışına adekvat cavab vermək məcburiyyətində qaldı. Beləliklə, bu, çox məyusedici məsələ olsa da, əlaqələrə ciddi təsir etdi.

İlham Əliyev hər şeyi açıq deməklə dövlət maraqlarının mübahisəsiz üstün tutulduğunun istənilən şərait üçün əsas olduğunu göstərdi. Yunanıstan hökumətinin rəsmən Azərbaycanı DESFA-nın alınması ilə bağlı tenderə dəvət etməsi və Azərbaycanın qalib çıxdığı tenderi sırf siyasi mülahizələrlə ləğv etməsi dövlətlərarası əməkdaşlıq müstəvisində arzuolunmaz vəziyyət yaradıb.

### Ermənistan, Yunanıstan və Kipr hərbi əməkdaşlığı Azərbaycanı narahat edir

Prezident həmçinin Ermənistan, Yunanıstan və Kipr arasında hərbi əməkdaşlıqla bağlı narahatlığını da yunan diplomatın diqqətinə çatdırdı. Ermənistanın təcavüzkar və etnik təmizləmə siyasəti, həyata keçirdiyi soyqırımı aktları, pozduğu beynəlxalq hüquq normaları, BMT Təhlükəsizlik Şurasının və başqa təşkilatların qətnamələrinə əməl etməməsi ilə bağlı faktları misal çəkdi. Bildirdi ki, iki il əvvəl Avropa İttifaqı və Azərbaycan “Tərəfdaşlıq prioritetləri” adlı sənədi paraflayıblar. Orada Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını dəstəkləyir.

Ermənistan aqressiv davranır və bu ölkə Azərbaycanın düşmənidir. Bu səbəbdən də Ermənistanın istənilən ölkə ilə sıx hərbi əməkdaşlığı narahatlıq doğurur: “Əməkdaşlığın bu üçtərəfli formatı bizi narahat edir. Əlbəttə ki, hər bir ölkə nəyi doğru düşünürsə, onu da edir. Buna görə biz bunu bloklamaq və ya istənilən şəkildə qarşısını almaq mövqeyində deyilik. Lakin hesab edirəm ki, bunun bizi narahat edən məsələ olduğunu məndən eşitməyiniz yaxşıdır və bunun niyə görə baş verdiyini mən izah etdim. Ermənistanın torpaqlarını işğal edən Azərbaycan deyil, Ermənistan Azərbaycanın ərazisini işğal edib. Bu da bütün beynəlxalq təşkilatların sənədlərində öz əksini tapıb”.

İlham Əliyev Tovuz döyüşlərindən, sərhəddə Ermənistanın təxribatından dərhal sonra Rusiyadan bu ölkəyə intensiv silah təchizatına görə sərgilədiyi sərt mövqeyi də səfirə xatırlatdı və açıq şəkildə dedi ki, Azərbaycan təkcə Yunanıstana deyil, təcavüzkara hərbi dəstək verən istənilən ölkəyə öz ciddi etirazını bildirir: “Bunu, sadəcə, sizə demirəm. Biz bu məsələni rusiyalı tərəfdaşlarımızla da qaldırmışıq ki, Ermənistanla hərbi əməkdaşlıq bizi narahat edən məsələdir. Çünki bu, Azərbaycan üçün mühüm təhdid törədir, çünki bu silahlardan istifadə edərək onlar bizim hərbçilərimizi, mülki şəxsləri öldürürlər”.

### Azərbaycan bütün məsələlərdə tərəddüd etmədən Türkiyəni dəstəkləyir

Cənab İlham Əliyevin toxunduğu digər məqam isə son günlər Türkiyə və Yunanıstan arasında Şərqi Aralıq dənizi regionunda baş verən məsələ oldu. Prezident bu gərginliyin Azərbaycanı ciddi narahat etdiyini vurğulayaraq dedi ki, Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, Azərbaycan üçün qardaş ölkədir. Azəraycan hər zaman heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyir və bütün hallarda dəstəkləyəcək. Çünki Azərbaycan tarixin bütün dövrlərində və bu gün də eyni dəstəyi qardaş ölkədən görür: “Onlar Azərbaycanı bütün məsələlərdə dəstəkləyirlər və biz onları bütün məsələlərdə dəstəkləyirik, o cümlədən Şərqi Aralıq dənizində kəşfiyyat məsələsi ilə bağlı. Mən istəyirəm ki, siz bizim mövqeyimizi biləsiniz. Bu mövqe mənim göstərişimlə artıq Azərbaycan hökuməti tərəfindən rəsmi açıqlanmışdır. Sizə bir daha deyə bilərəm ki, Türkiyə bizim üçün təkcə dost yox, qardaş ölkədir və türklər bizim qardaşlarımızdır. Beləliklə, bütün məsələlərdə biz onların yanında olacağıq”.

Beləliklə, cənab İlham Əliyev bu görüşdə həm Azərbaycanı narahat edən bütün məsələlərə ayrı-ayrılıqda aydınlıq gətirdi, həm də sonda vəziyyəti düzəltmək üçün nə edilməsinin vacib olduğunu aydın göstərdi. Prezident bildirdi ki, Yunanıstanın bu yaxınlarda iqtidara gəlmiş yeni hökuməti əvvəlki hökumətin Azərbaycana qarşı siyasətini yenidən nəzərdən keçirsə, bundan sonra təmasların bərpa olunması, müsbət dinamika yaradan məsələlərin müzakirəsi mümkün ola bilər. Yəni bu, Yunanıstan hökumətinin siyasəti və mövqeyindən asılı olacaq.

Azərbaycan Prezidentinin söylədiyi həqiqətləri Yunanıstan hökumətinə çatdıracağını söyləyən səfir Nikolaos Piperiqkos dedi ki, ötən il bu ölkədə hakimiyyətə yeni qüvvələr gəlib və hökumətin bütün sektorlarla bağlı məşğul olası çoxlu məsələləri var: “Bu hökumətin əhəmiyyətli dərəcədə əhatəsi var. Hesab edirəm ki, Yunanıstanla Azərbaycanı birləşdirən daha çox şeylər var. Məsələn, beynəlxalq hüquqa hörmət. Çünki yaxşı məlumdur, Yunanıstan beynəlxalq hüququ uzun müddətdir ki, qətiyyətlə dəstəkləyir. Əlbəttə ki, bir neçə il bundan əvvəl əməkdaşlığımız yaxşı inkişaf etmişdir. Lakin yeni hökumət sizinlə əlaqə yaratmaq üçün daha yaxşı yolları tapmaq məqsədilə zəruri olanı edəcəkdir”.

Səfirin sözlərinə görə, Azərbaycan və Yunanıstan üçtərəfli və ikitərəfli əməkdaşlıq aparan çox maraqlı ölkələrdir. Azərbaycanda bu təcrübə zəngindir, hətta ölkəmizdə üçtərəfli diplomatiyanın nümunəsi var. Yunanıstan həmişə beynəlxalq hüquqa tamamilə riayət edərək Azərbaycanla münasibətlərinə zərər vurmamağa diqqət yetirir: “Düşünürəm ki, yeni hökumətimizə Sizin hökumətinizlə münasibətlərimizi yaxşılaşdırmağa imkan tapmaq üçün vaxt verildiyini nəzərə alaraq əməkdaşlığımızın gələcəyi daha yaxşı ola bilər”.

Bütün bunlar bir daha təsdiq etdi ki, Azərbaycanın qətiyyətli və prinsipial dövlət başçısı, düşünülmüş və uzaqgörən siyasət yürüdən lideri var. Cənab İlham Əliyev hər zaman olduğu kimi, yunan diplomatla görüşündə də qətiyyətlə, inamla danışdı, prinsipial mövqeyini ortaya qoydu. Bu məqamda cənab İlham Əliyevin bu qətiyyətli fikirləri yada düşür: “Biz öz yolumuzla gedirik, heç kimin qarşısında baş əymirik, özümüzü ləyaqətlə aparırıq, milli maraqlarımızı qoruyuruq, Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tuturuq və bu siyasət davam etdirilməlidir. Bu gün bu siyasət var, bu siyasəti mən aparıram və heç bir qüvvə məni bu yoldan döndərə bilməz”.

### Yaponiya şirkətləri Azərbaycanın neft-qaz sektoruna böyük vəsait yatırıblar

Sentyabrın 2-də Prezident həmçinin Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vadanın da etimadnaməsini qəbul etdi. Səmimi söhbət zamanı iki ölkə arasındakı hərtərəfli əlaqələrin inkişaf perspektivləri müzakirə edildi.

Bu gün Yaponiya və Azərbaycan arasında münasibətlərin çox uğurla inkişaf etdiyini söyləyən cənab İlham Əliyev bu əməkdaşlığın çox geniş gündəliyinin olduğunu dedi. Hər iki ölkə arasında fəal siyasi dialoq, iqtisadi sahədə isə çox yaxşı nəticələr var. Yapon şirkətləri Azərbaycanda iş qurmaqda maraqlıdırlar. Əksər şirkətlər ölkəmizin neft və qaz sektoruna çoxlu vəsait yatırıblar.

Dövlət başçısı dedi ki, biznes mühiti ilə bağlı vəziyyətin yaxşılaşdırılmasını nəzərə alaraq, Azərbaycan əcnəbi şirkətlər üçün cəlbedici olmağa davam edir: “Biz, həmçinin müxtəlif layihələrə maliyyə dəstəyi göstərdiyinizə görə sizə minnətdarıq. Yapon banklarının və maliyyə institutlarının maliyyə dəstəyi ilə biz enerji infrastrukturumuzun iki mühüm layihəsini icra etdik - iki elektrik stansiyası, sınaq stansiyaları, “Şimal-1” və “Şimal-2”. Ümumi gücü 800 meqavata yaxındır. Əlbəttə ki, bu, bizim enerji təhlükəsizliyimizə böyük töhfədir. Biz yapon şirkətlərinin burada çalışdığına şadıq və həmçinin müxtəlif sosial layihələrə göstərdiyiniz könüllü dəstəyinizə görə sizə təşəkkürümüzü bildirmək istəyirik”.

Qeyd edək ki, bu layihələr təhsil, infrastruktur, müxtəlif kəndlərdə su təchizatı ilə bağlıdır və Azərbaycan bu dostluq jestini çox yüksək qiymətləndirir.

Səfir Cuniçi Vada isə bildirdi ki, 30 il ərzində hər iki ölkə arasında qarşılıqlı anlaşma və dostluq münasibətləri daha da möhkəmlənib. Yaponiya şirkətləri bu gün təkcə neft-qaz sektoru deyil, informasiya texnologiyaları, ekologiya, iqlim dəyişikliyinə aid müxtəlif məsələlər, kənd təsərrüfatı, turizm və bir çox digər sahələr üzrə Azərbaycana öz dəstəklərini göstərə bilərlər. Bütün bunlar əlaqələrin daha da möhkəmlənməsini şərtləndirə bilər.

Belə bir deyim var: “Ən böyük diplomatiya milli maraqları müdafiəetmə əzmi, ən doğru siyasət dürüstlükdür”. Cənab İlham Əliyev Prezident kimi son 17 ildəki fəaliyyətində daim milli maraqları qorumaq üçün tam müstəqil siyasət yürüdüb və hər zaman güclü diplomat keyfiyyətləri ilə beynəlxalq nüfuzunu yüksəldib və bütün bunlar onu xalqın alternativsiz liderinə çevirib.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Məlumat həqiqətə uyğun deyildir

Bu günlərdə bəzi kütləvi informasiya vasitələrində Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimliyə istinadən parlamentin payız sessiyasında "uşaq pulu" məsələsinin müzakirəyə çıxarılacağına dair məlumatlar yayımlanıb.

Qeyd olunur ki, guya, bir müddət əvvəl Milli Məclisin Sədri Sahibə Qafarova "uşaq pulu"nun bərpasının müzakirəsi üçün parlamentdə işçi qrupun yaradılması barədə göstəriş verib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi olaraq bildiririk ki, ictimaiyyətə təqdim edilən bu məlumat həqiqətə uyğun deyil və heç bir əsası yoxdur.

***Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

# NATO Parlament Assambleyasının Müdafiə və təhlükəsizlik komitəsinin onlayn iclası keçirilib



Sentyabrın 2-də NATO Parlament Assambleyasının Müdafiə və təhlükəsizlik komitəsinin videokonfrans formatında iclası keçirilib. İclasda Azərbaycanın qurumda nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov iştirak edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, quruma üzv və assosiativ ölkələrin nümayəndələrinin qatıldıqları onlayn iclasın gündəliyinə Rusiya və Qərbi Balkanlarla bağlı və digər məsələlər daxil edilib.

Toplantıda fransalı deputat Sedrik Perrin Rusiyada hərbi modernləşmə və NATO müttəfiqləri üçün qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış edib.

Sonra Trans-Atlantik müdafiə və təhlükəsizlik əməkdaşlığı üzrə alt komitə tərəfindən hazırlanmış Qərbi Balkanlarda sülhün və təhlükəsizliyin təmin olunmasına dair çağırışlar barədə məruzə təqdim edilib. Məruzəni fransalı deputat Jan Larsonner səsləndirib.

İclas iştirakçıları hər iki məsələ ilə bağlı fikirlərini bildirib, təkliflərini veriblər.

Müzakirələr zamanı Milli Məclisin qurumdakı nümayəndə heyətinin rəhbəri Ziyafət Əsgərov gündəlikdəki məsələlərə öz münasibətini bildirib. Çıxışında parlamentin komitə sədri COVID-19 pandemiyasının dünyada yayılmasının qarşısının alınmasında Azərbaycan Respublikasinin verdiyi töhfələrdən söhbət açıb. O qeyd edib ki, pandemiyanın ilk günlərindən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tərəfindən regional və qlobal səviyyədə koronavirusa qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır.

Ölkəmiz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində maddi yardım ayırıb. Azərbaycan hökuməti dünyada koronavirus infeksiyasının yayılması riskinin qarşısının alınması istiqamətində beynəlxalq birliyin səylərinə töhfə məqsədilə ÜST-nin "Strateji Hazırlıq və Cavab Planı" çərçivəsində "COVID-19 müraciəti" adlı Fonduna 5 milyon ABŞ dolları məbləğində könüllü maliyyə yardımının verilməsi barədə qərar qəbul edib. Ümumilikdə Azərbaycan Respublikası COVID-19-a qarşı mübarizədə qlobal həmrəylik nümayiş etdirərək 30-dan artıq dövlətə humanitar yardım göstərib.

Müzakirələrdə məruzəçi Jan Larsonner pandemiyaya qarşı mübarizə tədbirləri çərçivəsində Azərbaycan Prezidenti tərəfindən görülən işləri yüksək qiymətləndirərək cənab İlham Əliyevə təşəkkürünü ifadə edib.

Konfransda Ziyafət Əsgərov vurğulayıb ki, Qoşulmama Hərəkatının (QH) sədri kimi Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2020-ci il mayın 4-də QH-nin Təmas Qrupunun COVID-19 pandemiyasına həsr edilmiş videokonfrans formatında Zirvə Görüşü təşkil edilib.

Nümayəndə heyətinin rəhbəri qeyd edib ki, Prezident İlham Əliyev onlayn Zirvə Görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış edib. Daha sonra Prezident İlham Əliyev Qoşulmama Hərəkatı ölkələri adından məsələ ilə bağlı BMT-nin Baş katibi Antonio Quterreşə müraciət ünvanlayıb. Bu təşəbbüsə qarşı çıxış edən yeganə dövlət Ermənistan olub.

Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidentinin bu təşəbbüsünə qısa zamanda 130-a qədər ölkədən dəstək gəldi. İyulun 8-də cənab İlham Əliyev ilə Antonio Quterreş arasındakı telefon danışığı zamanı Baş katib bu təşəbbüsə tam dəstəyini nümayiş etdirib. BMT-nin Baş katibi COVID-19-la mübarizəyə dair təşkilatın xüsusi sessiyasının çağırılması barədə təşəbbüsə görə Azərbaycan Prezidentinə təşəkkürünü ifadə edib.

Bildirilib ki, Prezident İlham Əliyevin təşəbbüsü BMT Baş Assambleyasının rəhbəri tərəfindən də yüksək qiymətləndirilib. BMT Baş Assambleyasının prezidenti Ticcani Məhəmməd-Bande koronavirus pandemiyasına qarşı mübarizədə ölkələrin əməkdaşlığı məsələsinə dair xüsusi sessiyanın keçirilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Avqustun 31-də Ticcani Məhəmməd-Bande həmin sessiyanın təşkilinə həsr olunmuş xüsusi görüşdə deyib ki, Baş Assambleyada pandemiya məsələsinə dair xüsusi sessiya keçirilməsi təklifi bu təhlükəyə qarşı mübarizədə beynəlxalq səylərin səfərbər edilməsi üçün etibarlı təməldir.

Ziyafət Əsgərov əminliklə bildirib ki, cari il iyulun 10-dan başlayaraq bu gün də davam edən BMT-nin xüsusi sessiyası COVID-19 pandemiyası qarşısında beynəlxalq ictimaiyyətin səfərbər olunmasına şərait yaradacaq, bu qlobal təhdidə qarşı lazımi cavabın tapılmasına öz müsbət töhfəsini verəcək.

# *Ticcani MƏHƏMMƏD-BANDE:* "Biz Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycana bu çox mühüm sessiyanın keçirilməsinə təkid etdiyi üçün minnətdarıq"



Biz Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycana bu çox mühüm sessiyanın keçirilməsinə təkid etdiyi üçün, BMT Baş Assambleyasına isə sessiyanın keçirilməsinə razılıq verdiyi üçün minnətdarıq. Baş Assambleyanın pandemiyaya həsr olunan xüsusi sessiya keçirməsi ilə bağlı təklif COVID-19-a qarşı qlobal öhdəliyi səfərbər etmək baxımından etibarlı platformadır.

AZƏRTAC xəbər verir ki, bu sözləri BMT Baş Assambleyasının sədri Ticcani Məhəmməd-Bande Baş Assambleyanın COVID-19 pandemiyasına qarşı mübarizəyə həsr edilmiş 31-ci xüsusi sessiyasının təfərrüatları üzrə qətnamə layihəsi ilə əlaqədar keçirilən ilk qeyri-rəsmi məsləhətləşmə zamanı bildirib.

"Bizim koordinatorlar sizin əməkdaşlığınız və dəstəyinizlə danışıqlar üçün möhkəm zəmin yaradan gözəl layihə hazırlayıblar. İnanıram ki, xüsusi sessiya daha çox sayda dünya liderlərinin pandemiyaya nəticəyönümlü reaksiya verməsinə şərait yaradacaq. Bu isə öz növbəsində, pandemiyaya və onun insanların həyatına və həyat şəraitinə mənfi təsirlərinin azaldılmasına qarşı mübarizədə Baş Assambleyanın qlobal bir tərəfdaş kimi rolunu daha da gücləndirəcəkdir", - deyə Ticcani Məhəmməd-Bande qeyd edib.

BMT Baş Assambleyasının sədri inandığını bildirib ki, bu xüsusi sessiya beynəlxalq ictimaiyyətin pandemiyaya qarşı əlaqələndirilmiş şəkildə fəaliyyət göstərməsi üçün gözəl imkan olacaq. "BMT-nin üzvü olan çoxsaylı dövlətlərin xüsusi sessiyanın uğurla baş tutmasına göstərdiyi maraq məni çox sevindirir və bu sessiyanın təşkilinə töhfələrini vermiş şəxslərə minnətdarlığımı bildirirəm", - deyə o əlavə edib.

Ticcani Məhəmməd-Bande, eyni zamanda, BMT-nin bütün üzv dövlətlərini bu proses zamanı koordinatorlarla əməkdaşlıq ruhunda daha yaxından işləməyə çağırıb: "Hamınızı pandemiya problemini həll etmək üçün detallarla bağlı təcrübə mübadiləsi aparmaq üçün əlverişli platforma olaraq bugünkü müzakirələrdən yararlanmağa dəvət edirəm. Mövcud vəziyyət bizim COVID-19 virusuna qalib gəlməyimiz üçün birlikdə işləməyimizi və çoxtərəfli əməkdaşlığı gücləndirməyimizi zəruri edir".

Sədr deyib: "Hamı üçün daha yaxşı dünya qurmağa çalışdığımız bir vaxtda BMT Baş Assambleyası davamlı inkişaf üçün qlobal tərəfdaşlıqların möhkəmləndirilməsində sizin tərəfdaşınız olaraq qalacaq".

# Azərbaycanın Gənclər və İdman naziri İstanbulda beynəlxalq konfransda iştirak edib

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi Yusif bin Əhməd əl-Osayminin təklifi və quruma üzv ölkələrin Xarici İşlər Nazirləri Şurasının təsdiqi ilə 2017-ci ildən etibarən hər il sentyabrın 3-ü İƏT ölkələrinin Gənclər Günü kimi qeyd olunur.

Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, İƏT Gənclər Günü münasibətilə İstanbulda keçirilən tədbirdə Gənclər və İdman naziri Azad Rəhimov İƏT Gənclər və İdman nazirlərinin dördüncü konfransının sədri qismində iştirak edib.

Nazir Azad Rəhimov çıxışında iştirakçıları 3 sentyabr - İƏT Gənclər Günü münasibətilə təbrik edərək bildirib ki, təşkilata üzv ölkələrin Gənclər və İdman nazirlərinin Bakı toplantısından sonra qardaş Türkiyədə bu əlamətdar günə həsr edilmiş tədbir ölkələrimizin yerləşdiyi coğrafiyada gənclər siyasətinin inkişafı üçün təcrübə mübadiləsinin aparılması, bu sahədə tərəqqi prosesinə dair yeni fikir və ideyaların öyrənilməsi və gələcək istiqamətlərin müəyyənləşdirilməsi baxımından mühüm fürsətdir.

Gənclərin hər bir ölkənin gələcək inkişafında mühüm rol oynadıqlarını diqqətə çatdıran Azad Rəhimov İƏT-ə və onun Gənclər Forumuna bu istiqamətdə göstərilən səylərə və dəstəyə görə təşəkkür edib. Diqqətə çatdırıb ki, 2004-cü ildə İƏT Gənclər Forumunun təsis konfransının Bakıda keçirilməsi, 2010-cu ildən isə İƏT Gənclər Forumunun Avrasiya Regional Mərkəzinə məhz Azərbaycan hökumətinin evsahibliyi etməsi dövlətimizin gənclər siyasətinə verdiyi önəmin bariz nümunəsidir. Nazir 2020-ci ildə Azərbaycanın sədrliyi ilə Gənclər və İdman Nazirlərinin Daimi Şurasının Bakıda təşkilinin bunun əyani sübutu olduğunu vurğulayaraq, İƏT Gənclər Günü münasibətilə səmimi təbriklərini ifadə edib.

Tədbirdə Türkiyənin Gənclər və İdman naziri Mehmet Muharrem Kasapoğlu, İƏT Gənclər Forumunun prezidenti Taha Ayhan, təşkilata üzv ölkələrin səfirləri və baş konsulları iştirak ediblər. Eyni zamanda, tədbirdə İƏT-in baş katibi Yusif bin Əhməd əl-Osayminin müraciəti iştirakçıların diqqətinə çatdırılıb.

Sonda Gənclər və İdman naziri Azad Rəhimovun iştirakı ilə beynəlxalq fotoşəkil müsabiqəsinin qalibləri təltif ediliblər. Həmçinin Türkiyənin Gənclər və İdman naziri Mehmet Muharrem Kasapoğlu və İƏT Gənclər Forumunun prezidenti Taha Ayhan 2020-2021-ci illər üçün Əməkdaşlıq Protokolunu imzalayıblar.

# Xalqın inandığı və güvəndiyi LİDER

## Son sosial sorğu vətəndaşların Prezident İlham Əliyevə etimadının daha da yüksəldiyini təsdiq edir

*Əvvəli 1-ci səh.*

"Belə ki, rəyi soruşulanların 70,7 faizi, yəni, mütləq çoxluğu İlham Əliyevin ordu quruculuğu istiqamətindəki fəaliyyətinin çox səmərəli olduğunu düşünür. Əks mövqedən çıxış edən vətəndaşların faiz dərəcəsi 2,5-ə bərabərdir.

Ordu quruculuğu istiqamətində səmərəli fəaliyyət ölkə Prezidentinə olan inam və etimadın artmasını şərtləndirən əsas amil rolunda çıxış edir. Belə ki, Prezidentə olan inam və etimadının artdığını bildirən respondenlərin 82 faizi ordu quruculuğu istiqamətində dövlət başçısının fəaliyyətini çox müsbət qiymətləndirir.

Beynəlxalq və milli səviyyədə yeni çağırışlar, inkişaf hədəfləri dövlət idarəçiliyi sahəsində çevikliyin və səmərəliliyin artırılmasını zəruri edir. Bu istiqamətdə vacib həll yolu kimi kadr islahatları daim dövlət başçısının diqqət mərkəzindədir. Prezidentin həyata keçirdiyi kadr islahatları respondentlərin 53,9 faizi tərəfindən çox səmərəli, 32 faizi tərəfindən isə əsasən səmərəli kimi qiymətləndirilir. Prezident tərəfindən həyata keçirilən kadr islahatları dövlət başçısına olan inam və etimadın artmasında təsirli rol oynayıb. Belə ki, Prezidentə olan inam və etibarının artdığını bildirən respondentlərin 68,6 faizi kadr islahatlarını yüksək qiymətləndirib. Həmçinin dövlət başçısının həyata keçirdiyi kadr islahatlarını çox səmərəli hesab edənlərin 81,2 faizi onun korrupsiya ilə mübarizə sahəsindəki təşəbbüslərini də dəstəklədiyini bildirib. Kadr islahatlarını mənfi qiymətləndirənlərin də əhəmiyyətli hissəsi - 74,3 faizi korrupsiya hallarına yol verən vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinin doğru olduğu qənaətindədir.

Prezident İlham Əliyevin təhlükəsizlik və xarici siyasət sahələrində atdığı çevik strateji addımlar daim diqqəti cəlb edir. Hazırkı mərhələdə Azərbaycan beynəlxalq münasibətlər sistemində kifayət qədər ciddi mövqelərə malik olmaqla, çoxistiqamətli səmərəli əməkdaşlıq sistemini qura bilib. Rəyi soruşulanların əksəriyyəti də bu qənaəti bölüşüb. Belə ki, respondentlərin 54 faizi təhlükəsizlik və xarici siyasət istiqamətində Prezidentin fəaliyyətini çox səmərəli, 28,9 faizi, əsasən, səmərəli hesab edir.

Sosioloji sorğu zamanı Bakı şəhəri, Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Qarabağ, Aran və Dağlıq Şirvan iqtisadi-coğrafi rayonları əhatə olunmaqla 5 mərhələ üzrə ümumilikdə 4144 respondentin rəyi öyrənilib. Hər iqtisadi rayon üzrə sorğuda iştirak etməli olan respondent sayından 10 dəfə çox sayda stasionar telefon nömrəsi müvafiq bazalardan təsadüfi qaydada seçilib. Bundan sonra nəzərdə tutulmuş respondent sayının sorğuda iştirakını təmin edənə kimi seçilmiş nömrələrə zəng olunub.

Göründüyü kimi, siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanan İlham Əliyevin atdığı addımlar, verdiyi qərarlar insanlar tərəfindən yüksək qiymətləndirilir. Bütün bunlar göstırir ki, xalqımız öz Prezidentinin ətrafında sıx səfərbərdir. Bütövlükdə, sosial sorğu bir daha təsdiq edir ki, Prezident İlham Əliyev vətəndaşların inandığı və güvəndiyi Liderdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Qeyri-formal məşğulluğun qarşısının alınması aparılan sosial-iqtisadi siyasətin mühüm tərkib hissəsidir

Prezident İlham Əliyevin 2017-ci il 14 mart tarixli sərəncamı ilə yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası bu günlərdə növbəti iclasını keçirdi. İclasda müzakirə olunan məsələlər, ümumən komissiyanın ötən dövrdəki fəaliyyəti, qeyri-formal məşğulluğun aradan qaldırılması istiqamətində aparılan işlər və əldə olunan nəticələr barədə AZƏRTAC-ın suallarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq siyasəti və demoqrafik inkişaf məsələləri şöbəsinin müdiri, komissiyanın katibliyinin rəhbəri Rəşad Dayıyev cavablandırıb.

**- Qeyri-formal məşğulluq nədir və onun sosial-iqtisadi inkişafa mənfi təsirləri nədən ibarətdir?**

- Son illər qəbul olunmuş məşğulluq haqqında qanunvericilikdə qeyri-formal məşğulluğun aydın izahı verilib. Belə ki, qeyri-formal məşğulluq əmək müqaviləsi (kontrakt) və ya mülki hüquqi müqavilə bağlanılmadan müəyyən fəaliyyətin yerinə yetirilməsi, sahibkarlıq fəaliyyətinin və mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqdan istifadənin rəsmiləşdirilmədən həyata keçirilməsi, eləcə də yerli özünüidarəetmə orqanlarında uçota durmadan ailə kəndli təsərrüfatının təşkili nəticəsində qazanc (gəlir) əldə edilməsidir.

Qeyri-formal məşğulluq kölgə iqtisadiyyatının əsas göstəricisidir. İşçi ilə qeyri-formal əmək münasibətləri işəgötürənin vergi və məcburi sığorta ödəmələrindən yayınmaq məqsədinə xidmət edir. Lakin belə hallar bir tərəfdən işçinin gələcək sosial müdafiə hüquqlarını, pensiya təminatını sual altında qoyur, hətta iş yerində bədbəxt hadisə zamanı xəsarət aldıqda belə onun köməksiz vəziyyətdə qalmasına səbəb olur. Digər tərəfdən, qeyri-formal məşğulluq dövlət büdcəsi daxilolmalarına ciddi ziyan vurur. Eyni zamanda, qeyri-formal məşğulluq əmək ehtiyatlarından səmərəli istifadə olunmasına, layiqli əməyin dəstəklənməsinə, işəgötürənlərin də iqtisadi mənafelərinə, müəssisədə əmək məhsuldarlığına, keyfiyyətli istehsal və xidmət prosesinə ciddi zərər vurur.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən uğurla reallaşdırılan sosial dövlət konsepsiyasının başlıca istiqaməti əhalinin rifah səviyyəsinin yüksəldilməsi, hər bir vətəndaşın iqtisadi və sosial hüquqlarının qorunmasıdır. Bu baxımdan qeyri-formal məşğulluğun aradan qaldırılması dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm tərkib hissəsidir.

Qeyri-formal işləyənlərə formal məşğulluğa keçmələri barədə Prezident tərəfindən də çağırışlar edilib. Bildiyiniz kimi, bu il pandemiya ilə əlaqədar genişmiqyaslı sosial dəstək tədbirləri həyata keçirilir o cümlədən dörd dəfə olmaqla birdəfəlik ödəmə (190 manat) proqramı icra olunub ki, bu proqram işsiz şəxslərlə yanaşı, xüsusi karantin rejiminə görə gəlirini itirən qeyri-formal işləyən şəxslər də daxil olmaqla 600 min nəfəri əhatə etdi. Bunun üçün 333 milyon manat sərf olundu.

**- Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının bu istiqamətdə fəaliyyəti barədə məlumat verməyinizi istərdik.**

- Prezident İlham Əliyevin hələ üç il əvvəl imzaladığı 2017-ci il 14 mart tarixli sərəncamla Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının yaradılması da qeyri-formal məşğulluğun qarşısının alınması istiqamətində aparılan sosial-iqtisadi siyasətin daha da gücləndirilməsi və bu sahədə praktik nəticələrə nail olunması məqsədi daşıyıb. Həmin sərəncamla yaradılmış 7 nəfər aidiyyəti qurumların rəhbər səviyyəsində təmsil olunduqları komissiyaya Baş Nazirin müavini Əli Əhmədov sədrlik edir. Sərəncamda əmək münasibətləri iştirakçılarının iqtisadi və sosial hüquqlarının tənzimlənməsi və sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər planının hazırlanmasını və təsdiq edilməsini, eləcə də bu nəzarət tədbirlərinin əlaqələndirilməsini təmin etmək tapşırılmışdı. Qısa müddət ərzində mütərəqqi təcrübə nəzərə alınmaqla qeyri-formal məşğulluğun aradan qaldırılması istiqamətində aparılacaq tədbirlər müəyyənləşdirilib. Tədbirlər planı isə Prezidentin 2017-ci il 9 oktyabr tarixli sərəncamı ilə təsdiqlənib. Onu da qeyd edim ki, sərəncama əsasən cari fəaliyyətin təşkili məqsədilə komissiyanın katibliyi fəaliyyət göstərir və katibliyin funksiyası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilib. Əlavə olaraq bildirim ki, komissiya daxilində 3 işçi qrupu da fəaliyyət göstərir və mütəmadi olaraq verilmiş tapşırıqlar üzrə onların gördükləri işlərə dair hesabatları dinlənilir.

Komissiyanın fəaliyyəti ərzində ölkədə formal məşğulluğun təşviqi məqsədilə bir çox qanunvericilik aktları qəbul edilib, o cümlədən yeni "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib, "İşsizlikdən sığorta haqqında" Qanun qüvvəyə minib, İşsizlikdən Sığorta Fondu yaradılıb, işçilərin və işəgötürənlərin formal məşğulluğa marağını artırmaq məqsədilə vergi və sosial sığorta sahəsində islahatların dəstəklənməsi məqsədilə qanunvericiliyə zəruri dəyişikliklər edilib.

**- Komissiyanın fəaliyyəti dövründə qeyri-formal məşğulluğun qarşısının alınması sahəsində hansı nailiyyətləri qeyd edərdiniz?**

- Komissiyanın fəaliyyəti ərzində nailiyyətləri qeyd edərkən, ilk növbədə, əmək müqavilələrinin sayındakı davamlı artım dinamikasını göstərmək olar. Komissiyanın yaradıldığı vaxtdan ötən dövrdə əmək müqavilələrinin sayında 387 min və ya 30 faizdən çox artım müşahidə edilib. Cari ilin ilk yarısında əmək müqaviləsi ilə işləyənlərin sayı 1 661 692 nəfərə çatıb. 2020-ci ilin yanvar-iyun aylarında bu artım qeyri-dövlət sektorunda 110 min olub. Bu o deməkdir ki, COVID-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, özəl sektorda nəinki iş yerlərinin qorunub saxlanılmasına nail olunub, hətta əlavə 110 min əmək müqaviləsi bağlanılmaqla, bu qədər sayda insan öz sosial hüquqlarını bərpa edib.

Digər bir nailiyyət kimi fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanlar və sığortaedənlərin sayında müşahidə edilən artımdır. Cari ilin ilk yarısında bu şəxslərin sayı müvafiq olaraq 6 və 6,5 faiz artıb.

Bundan başqa, komissiyanın fəaliyyəti dövründə fiziki şəxs sahibkarların da sayı artaraq 466 min nəfərə, sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz əldə etmiş sabit vergi ödəyicilərinin sayı isə 9,6 min nəfərə çatıb.

**- Ümumilikdə "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın icrası hansı istiqamətləri nəzərdə tutur və icra vəziyyəti necədir?**

- Tədbirlər Planında 36 tapşırığın icrası nəzərdə tutulub və bu tədbirlərin icrası üzrə 24 icraçı qurum müəyyənləşib. Tədbirlər Planı 5 bölmədən ibarət olmaqla qanunvericiliyin, inzibatçılığın təkmilləşdirilməsi, nəzarət tədbirləri, monitorinq və qiymətləndirmə sisteminin qurulması, eləcə də təbliğat-təşviqat kampaniyalarının keçirilməsi istiqamətlərini nəzərdə tutur.

Tədbirlər Planı üzrə ölkədə formal məşğulluğun stimullaşdırılması və qeyri-formal məşğulluq hallarının qarşısının alınması üçün qanunvericiliyin təkmilləşdirilməsi sahəsində təkliflərin hazırlanması təmin edilib. Bundan başqa, elektron informasiya resurslarının təkmilləşdirilməsi və inteqrasiyası sahəsində aidiyyəti dövlət qurumları tərəfindən işlər davam etdirilir və icrasının yaxın müddətdə təmin olunması hədəflənib. Həmçinin sənədə əsasən 11 istiqamət - qeyri-formal məşğulluqla mübarizə tədbirləri, qeyri-formal məşğulluğun mənfi nəticələri, formal məşğulluğun üstünlükləri barədə məlumatlandırma və təbliğat kampaniyasının həyata keçirilməsi qeyri-formal məşğulluğun qarşısının alınması istiqamətində, ictimai təşkilatların və sosial tərəfdaşların birgə fəaliyyətinin dəstəklənməsi və s. işləri də davam edir. Onu da bildirim ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu sahədə ardıcıl təbliğat-maarifləndirmə işləri də görülür.

Məlumatlandırma və təbliğat tədbirləri ilə yanaşı, davamlı icra edilən tədbirlərdən biri də "Məşğulluq haqqında" Qanuna əsasən müəyyən edilmiş aktiv məşğulluq proqramlarının, xüsusilə özünüməşğulluğun genişləndirilməsidir. Eyni zamanda qeyri-formal məşğulluğun aşkar edilməsi üçün yoxlamaların həyata keçirilməsi formaları təkmilləşdirilir. Bununla bağlı, "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatının yaradılması nəzərdə tutulub. Bildiyiniz kimi, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 25 fevral tarixli Fərmanı ilə "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sisteminin və ehtiyatlarının Siyahısı" təsdiq edilib. Fərmana əsasən, 18 dövlət qurumunun 25 elektron informasiya sisteminin inteqrasiyası təmin ediləcək. Hazırda sözügedən vahid elektron informasiya ehtiyatının yaradılması istiqamətində işlər görülür. Bu sistemin yaradılması məşğulluq sahəsində lazımi məlumatları özündə əks etdirən müxtəlif dövlət qurumlarının elektron informasiya sistemlərinin vahid sistem altında inteqrasiya edilməsinə və bu məlumatların elektron çarpaz yoxlanılması nəticəsində qeyri-formal məşğulluğun aşkar edilməsinə, qeyri-formal məşğulluqla mübarizədə nəzarətin daha da gücləndirilməsinə imkan yaradacaq.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İqtisadiyyat nazirinin Dünya Bankının regional direktoru ilə görüşü olub

İqtisadiyyat naziri Mikayıl Cabbarovun Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə videokonfrans formatında görüşü keçirilib.




Görüşdə Dünya Bankının Cənubi Qafqaz üzrə meneceri xanım Sara Mayklı yeni təyinatı münasibətilə təbrik edən İqtisadiyyat naziri qarşılıqlı əməkdaşlığın uğurlu olacağına əminliyini vurğulayıb. Qeyd edilib ki, ölkəmiz Dünya Bankı ilə əlaqələrə böyük önəm verir. Hazırda Azərbaycanda Dünya Bankının 4 kredit və 18 texniki yardım layihəsi icra olunur. Koronavirus (COVID-19) pandemiyasından irəli gələn çətinliklər və pandemiyanın sosial-iqtisadi təsirlərini minimallaşdırmaq üçün Dünya Bankı tərəfindən göstərilən dəstək tədbirləri yüksək qiymətləndirilir. Bu ilin iyulunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Anna Bjerde arasında keçirilmiş görüş zamanı bir sıra sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib.

Qısa və orta müddətli dövr üçün ölkəmizin inkişaf prioritetlərinə dair fikirlərini bölüşən Mikayıl Cabbarov iqtisadi islahatlar və struktur dəyişiklikləri, iqtisadiyyatın şəxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və rəqabətqabiliyyətliyinin artırılması tədbirləri barədə məlumat verib.

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus Azərbaycanda aparılan islahatların bank tərəfindən dəstəkləndiyini, bir sıra sahələrdə təcrübəsini bölüşməyə hazır olduğunu diqqətə çatdırıb.

Görüşdə Dünya Bankı ilə əməkdaşlığın inkişaf istiqamətləri və islahatlara dəstək barədə müzakirələr aparılıb.

## Beyləqanın Milabad qəsəbəsində yeni subartezian quyusu qazılır

Prezident İlham Əliyevin 12 avqust 2020-ci il tarixli sərəncamına əsasən, əhalinin içməli suya tələbatının ödənilməsi, həmçinin əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə layihələrin icrasına başlanıb.

Sərəncama uyğun olaraq, 15 rayonun 24 kənd və qəsəbəsində yeni subartezian quyularının qazılması nəzərdə tutulur.

Bu sırada Beyləqan rayonunun Mil, Yeni Mil və Milabad qəsəbələrinin hər birində subartezian quyuları qazılacaq. Həmin qəsəbələrdə içməli su problemi uzun illər mövcud olub. Əhali suya tələbatını arx suları hesabına və uzaq məsafələrdən maşınlarla daşıyaraq ödəyib. Xüsusilə yay aylarında kənd sakinləri içməli sudan ciddi əziyyət çəkib.

Kənd sakinlərini içməli su ilə təmin etmək üçün yeraltı sulardan istifadə olunması qərara alınıb. Bu məqsədlə ərazidə tədqiqat işləri aparılıb və 150 metr dərinlikdəki lay sularından istifadə olunması layihələndirilib. Subartezian quyularının qazılmasına "Azərsu" Açıq Səhmdar Cəmiyyəti ilə yanaşı, SOCAR-ın quyuların qazılması sahəsində ixtisaslaşmış təşkilatları cəlb olunub. Qazıntı işləri yekunlaşdıqdan sonra quyularda nasos və transformatorlar quraşdırılacaq və quyular elektrik enerjisi ilə təmin olunacaq.

Hazırda Milabad qəsəbəsində subartezian quyusunun qazılması yekunlaşmaq üzrədir. Bu qazma qurğuları hesabına növbəti mərhələdə Mil və Yeni Mil qəsəbələrində də subartezian quyuları qazılacaq. Ümumilikdə 24 yaşayış məntəqəsində subartezian quyularının qazılması işlərinin cari ilin sonunadək başa çatdırılması nəzərdə tutulur.

## İnvestisiyaların təşviqi istiqamətində yeni qanun layihəsi hazırlanır

Bu barədə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AzPROMO) prezidenti vəzifəsini icra edən Yusif Abdullayev mətbuat konfransında deyib.

Y.Abdullayev qeyd edib ki, həmçinin Beynəlxalq Maliyyə Korporasiyası ilə 2020-2025-ci illəri əhatə edən xarici investisiyaların təşviqinə dair strategiya hazırlanıb. Strategiyada qeyd olunan illər üçün prioritet sahələr müəyyənləşib.

O həmçinin bildirib ki, bu ilin sonuna "İnvest in Azerbaijan" saytı istifadəyə veriləcək: "Bu istiqamətdə işlər davam etdirilir. Payızın sonlarında saytın təqdimatı olacaq. Saytla yanaşı, mobil tətbiq də istifadəyə veriləcək ki, sahibkarlar biznes və investisiya haqqında mühüm məlumatları əldə edə biləcəklər".

## İran-Azərbaycan-Rusiya dəmir yolu ilə süd məhsulları və meyvə daşımaları artıb

"ADY Express" MMC-nin Azərbaycandan tranzit rejimində nəql etdiyi bir sıra yük növlərində artım müşahidə olunub. Bunu ilk növbədə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində həyata keçirilən yükdaşımalara aid etmək olar.

MMC-dən AZƏRTAC-a bildirilib ki, Astara yük terminalından keçərək, İran-Azərbaycan-Rusiya marşrutu ilə nəql olunan süd məhsulları və meyvə yükdaşımalarında artım müşahidə olunur. "ADY Express" artıq İrandan Rusiyaya 1000 ton quru süd və pendir nəql edib. Bununla yanaşı, şirkət 2 ay ərzində Astaradan Həştərxana 5050 ton meyvə nəql etməyə müvəffəq olub.

Yükdaşımalar şirkətin təqdim etdiyi refsekisyalarla (refrijerator vaqonlar) həyata keçirilib. Vaqonlar Astara (İran) yük terminalında yüklənərək "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə təyinat nöqtələrinə nəql edilib.

Bununla yanaşı, "ADY Express" Astara-Ələt-Xəzər dənizi-Qazaxıstan-Tacikistan marşrutu ilə Azərbaycandan tranzit rejimində keçməklə İrandan Tacikistana biskvit və çay nəql edib ki, bu da həm seçilən marşrut, həm də daşınan yük növündə yenilik idi. Bu yüklər də şirkətin təqdim etdiyi refsekisyalarla daşınıb.

## Arı bəslə - bal tut, bar götür



İqtisadiyyatın bütün sahələrinə zərbə vuran koronavirus pandemiyası kənd təsərrüfatından da yan keçməyib. Bundan başqa, cari ildə kəndli və fermerləri təbiət də sınağa çəkib. Belə ki, əsasən quraqlıq onlar üçün müəyyən çətinliklər yaradıb. Ölkə arıçılarının da öz problemləri var. Buna baxmayaraq, arıçılarımız yüksək məhsuldarlığa nail olublar. Əlbəttə, dövlətin köməyi və dəstəyi ilə!

Aran və dağlıq bölgələrdə yaşayan arıçıların qayğıları bir-birindən fərqlənir. Dağ rayonlarının arıçıları arıları əsasən öz yaşayış yerlərində bəsləyirlər. Aran arıçıları isə arıların bal toplama mövsümündə onları başqa yerlərə, yəni gülün-çiçəyin daha çox olduğu ərazilərə köçürürlər. Məsələn, Gəncə arıçıları daha çox köçəri arıçılığa üstünlük verirlər.

Bununla bağlı Gəncə Arıçılıq Assosiasiyasının sədri Füzuli Verdiyevin fikirləri maraqlıdır. O qeyd edir ki, pandemiya ilə əlaqədar ölkədə tətbiq olunan xüsusi karantin dövrünün ilk günlərində arıçıların arıxanalara gediş-gəlişində, arı ailələrinin müxtəlif yerlərə daşınmasında, eləcə də arıçıların ehtiyacı olan və xarici ölkələrdən idxal edilən mum, şan və digər məhsulların fermerlər üçün əlçatanlığında müəyyən çətinliklər yaranmışdı.

Aran fermerləri həmçinin havaların qeyri-sabit keçməsinin işin zərərinə olduğunu söyləyirlər. Belə ki, bu il yazın əvvəlində yağıntılı günlər çox olsa da, yay aylarında ölkə ərazisində müşahidə edilən quraqlıq arıçılar üçün də çətinlik törədib. Onlar bal süzümünə başlayanda isə yağış yağmağa başlayıb. Bu cür hava şəraiti bal süzümünün vaxtında həyata keçirilməsini ləngitməklə yanaşı, arıların dərmanlanmasını, dezinfeksiya işlərini və qışa hazırlıq prosesini də gecikdirir.

Bütün bu çətinlikləri aradan qaldıran aran arıçıları öz arılarını Kür çayının sahillərinə, dağlıq və dağətəyi ərazilərə köçürə biliblər. Nəticədə yüksək məhsuldarlığa nail olublar.

Ölkə arıçılarına dövlət tərəfindən hərtərəfli dəstək göstərilir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında" 5 mart 2018-ci il tarixli sərəncamının icrası çərçivəsində arıçılara hər il subsidiyalar verilir.

Bu il Zaqatala rayonunda arıçılıqla məşğul olan 1445 şəxs saxladığı 32 min 17 arı ailəsinə (pətəyinə) görə dövlət büdcəsinin vəsaiti hesabına 320 min 170 manat subsidiya alacaq. Xatırladaq ki, subsidiya hər arı ailəsinə 10 manat hesabı ilə verilir. Ötən il Zaqatala arıçılarına 288 min 250 manat subsidiya ödənilib.

Zaqatala Dövlət Aqrar İnkişaf Mərkəzinin məlumatına görə, arıçılıq təsərrüfatlarında olan arı ailələri Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyata alınaraq təsdiq edilib. Yaxın vaxtlarda arıçılara builki subsidiyanın ödənilməsinə başlanacaq.

Arıçılığın inkişafına dövlət dəstəyi nəticəsində bu il rayonda daha 195 yeni təsərrüfat yaradılıb və arı ailələrinin sayı 3192-yə çatıb.

Qax rayonunun təbii iqlim şəraiti də arıçılığın getdikcə inkişafına imkan verir. Rayonun arıçılıq təsərrüfatlarında olan arı ailələrinin identikləşdirilməsi işləri başa çatıb. Monitorinqlərin nəticələrinə əsasən, hazırda rayonda arıçılıqla məşğul olan 897 arıçının təsərrüfatında 26 min 846 arı ailəsi saxlanılır. Rayonda arıçılıq təsərrüfatlarının və arı ailələrinin sayı ötən illə müqayisədə xeyli artıb. 100 yeni təsərrüfat və 5162 arı ailəsi yaradılıb. Nazirlər Kabinetinin təsdiq etdiyi "Arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə görə subsidiya verilməsi Qaydası"na uyğun olaraq, bu il rayonun arıçılarına dövlət büdcəsinin vəsaiti hesabına 268 min 460 manat subsidiyanın verilməsi nəzərdə tutulur.

Ağcabədi rayonunda isə 272 arıçı 4982 arı ailəsi saxlayır. Bu il onlara 49 min 820 manat subsidiyanın verilməsi nəzərdə tutulur.

Ağdam rayonunda arıçılıqla məşğul olan 265 arıçı saxladığı 4629 arı ailəsinə görə 46 min 290 manat subsidiya alacaq.

Yeri gəlmişkən, bir məsələni də qeyd edək. Adətən arıçılıqla kişilər məşğul olur. Lakin son dövrdə qadınların da bu peşəyə marağının artdığı müşahidə edilir. Təcrübə göstərir ki, onlar bu çətin işin öhdəsindən gələ bilirlər.

Məsələn, Qəbələ rayonunda Leyla Hüseynova 30 ildən çoxdur arıçılıqla məşğuldur. İndi onun yolunu Gülnar Məmmədzadə kimi gənc arıçı qızlar davam etdirir. Arıçı Qadınlar Qrupu yarandıqdan sonra arıçı xanımlar işdə toqladıqları təcrübəni bölüşmək imkanı qazanıblar.

Ümumilikdə isə hazırda Qəbələ rayonunun 600 təsərrüfatında 12 min 300 arı ailəsi bəslənir.

Bir neçə kəlmə də ölkədə balın satışı barədə. Məlum olduğu kimi, indiyədək balı yerli sakinlərlə yanaşı, xarici turistlər də alırdı. Mövcud vəziyyətlə əlaqədar turistlərin sayı minimuma enib. Hələlik bal sərgi-yarmarkaları da təşkil olunmur. Pandemiya ilə əlaqədar respublika ərazisində tətbiq olunan xüsusi karantin rejimi dövründə kafe və restoranların fəaliyyətinin dayandırılması, yaxud geniş şəbəkədə fəaliyyət göstərməməsi balın satışında da məhdudiyyət yaradıb.

Lakin bu əvəzsiz nemətin alıcıları yenə də az deyil. Pandemiya zamanı insanların immunitetini artıran məhsul kimi bala böyük üstünlük verilir. Bu da balın pərakəndə satışının genişlənməsinə, yəni fərdi alıcılarının sayının çoxalmasına səbəb olub.

Beləliklə, bal alın, arıların Azərbaycanın ən ətirli çiçəklərindən, ən faydalı bitkilərindən topladığı, xalqın "min bir dərdin dərmanı" adlandırdığı bu məhsuldan bol-bol dadın - azar-bezar sizdən uzaq olsun!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Özbəkistanın ölkəmizdəki səfiri ilə görüşüb



Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələr arasında iqtisadi əlaqələr inkişaf etməkdədir. Cari ildə Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə keçirilən Zirvə görüşündən sonra bu əməkdaşlığın yeni mərhələsi başlamışdır.

Özbəkistanın Azərbaycandakı səfiri Baxrom Aşrafxanov ilə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev arasında keçirilən görüş də ölkələrimiz arasındakı iqtisadi əməkdaşlığın inkişaf istiqamətlərinə və prioritet sahələrlə bağlı müzakirələrə həsr edilmişdir.

M.Musayev səfiri salamlayaraq yeni təyinatı münasibətilə onu təbrik etmiş və işlərində uğurlar arzulamışdır. Özbəkistana olan səfərlərini və orada keçirilən biznes forumların səmərəli olduğunu qeyd edən konfederasiyanın prezidenti Daşkəndin ona doğma şəhər olduğunu vurğulamışdır.

Səfir B.Aşrafxanov xoş sözlərə görə ASK prezidentinə təşəkkür edərək sentyabrın 4-də Özbəkistanda MDB dövlətlərinin sahibkarlıq üzrə palatalarının görüşündə M.Musayevin fəxri qonaq qismində çıxış edəcəyini bildirmişdir. "Özbəkistanda çalışan sahibkarların və onları təmsil edən qurumların konfederasiya ilə əməkdaşlığa böyük marağı vardır və bu əməkdaşlığımız əminəm ki, hər iki dövlət üçün faydalı olacaqdır", - deyə səfir vurğulamışdır.

Səfir Ələt İqtisadi Zonasında Özbəkistan və Azərbaycan sahibkarlarının tekstil, ərzaq, dərman istehsalı sahəsində birgə müəssisələr yarada biləcəyini bildirmişdir. O, qeyd etmişdir ki, hazırda Özbəkistan şirkətinin iştirakı ilə Hacıqabulda avtomobil zavodu inşa olunur və orada "General Motors" ilə birlikdə avtomobil istehsal etmək planlaşdırılır. Azərbaycanda yetişdirilən fındıq, nar sortlarına Özbəkistanda böyük maraq olduğunu vurğulayan səfir bununla bağlı regionlara səfər etdiyini bildirmişdir. B.Aşrafxanov Bakının Özbəkistana gedən tranzit yüklər üçün mərkəz funksiyası daşımasını arzuladığını bildirərək bununla bağlı konkret işlər görüldüyünü söyləmişdir.

M.Musayev səfiri maraqlandıran sahələrlə bağlı, ASK-nın İdarə Heyətində təmsil olunan assosiasiyalar barədə məlumat vermişdir. O, Azərbaycan sahibkarlarının Özbəkistana böyük marağının olduğunu qeyd edərək, iki türk dövləti arasında iqtisadi əməkdaşlığın genişlənməsi naminə qarşıya qoyulan hədəflərə çatmaq üçün ASK-nın əlindən gələni əsirgəməyəcəyini vurğulamışdır.

Görüşün sonunda iki ölkə arasında iqtisadi, humanitar, mədəni əlaqələrin genişləndirilməsi üçün Azərbaycan Sahibkarlar Konfederasiyası ilə səfirlik arasında əməkdaşlığın davam etdirilməsi qərara alınmışdır.

***"Azərbaycan"***

## 2,6 milyon nəfərə pensiya, müavinət, təqaüd və ünvanlı sosial yardım verilib

Dövlət Sosial Müdafiə Fondu tərəfindən yanvar-avqust aylarında ümumilikdə 2 milyon 600 minə yaxın şəxsə pensiya, müavinət, təqaüd, ünvanlı sosial yardım verilib.

Həmin sosial təminat növləri üzrə əhaliyə yanvar-avqust aylarında 3,8 milyard manatdan çox vəsait ödənilib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 25,7 faiz və ya 782,7 milyon manat çoxdur.

## Sahibkarlara yeni aqrar xidmətdən yararlanmaq imkanı yaradılıb

Nazirlər Kabinetinin 25 avqust 2020-ci il tarixli qərarı ilə idxal-ixrac olunan yaş meyvə-tərəvəz məhsullarında fumiqasiya (zərərsizləşdirmə) tədbirləri aparmaq imkanı yaradılıb.

Aqrar Xidmətlər Agentliyinin Fumiqasiya Mərkəzinə müraciət etməklə sahibkarlar idxal və ya ixrac etdikləri yaş meyvə-tərəvəz məhsullarının fumiqasiya ilə zərərvericilərdən tam təmizlənməsinə nail ola bilərlər.

Zərərsizləşdirmə tədbirləri karantin nəzarətində olan məhsulların becərilməsi, tədarükü, saxlanması, daşınması, emalı, satışı, habelə onların idxalı, tranziti və ixracı ilə məşğul olan hüquqi və fiziki şəxslər üçün məcburidir. Tələblərə riayət etməyən şəxslər fitosanitar tədbirlərinin pozulmasına görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

2020-ci ilin avqust ayı ərzində Aqrar Xidmətlər Agentliyinin Fumiqasiya Mərkəzinin mütəxəssisləri tərəfindən 13,5 min tondan artıq dənli, dənli-paxlalı bitki məhsulları və yem, 22,6 min kubmetr meşə materialı, 582 min kubmetr istehsal və saxlanma yeri, 407 min kubmetr istixana sahəsi zərərsizləşdirilib.

Qeyd edək ki, fumiqasiya tədbirləri sahibkarların müraciəti əsasında həyata keçirilir.

## 68 min sakinin istifadə etdiyi yolun tikintisi yekunlaşır

Quba rayonunda 68 min nəfər əhalinin yaşadığı 66 yaşayış məntəqəsini birləşdirən 46 kilometrlik Quba-Qonaqkənd avtomobil yolunun tikintisi başa çatır.



Avtomobil yolu keçdiyi ərazinin relyefinə uyğun olaraq III və IV texniki dərəcəyə uyğundur. Müvafiq olaraq yolun torpaq yatağı 12 və 10, hərəkət hissəsi isə 7 və 6 metrdir.

Layihə çərçivəsində yolun 35, 36 və 41-ci km-lik hissəsində kiçik dağ çayları üzərində hər birinin uzunluğu 26 və 27 metr olan 1 aşırımlı 3 körpü, yolun 43 və 46-cı km-lik hissəsində Babaçay və Cimiçay üzərində yeni körpülər inşa edilib. Babaçay üzərindən salınan körpünün uzunluğu 126, Cimiçay üzərindəki körpünün uzunluğu isə 80 metrdir.

Bundan başqa, yol "Təngə dərəsi" kimi tanınan ərazidə qayaların çapılması hesabına 4 metrdən 10 metrə kimi genişləndirilib. Vəlvələçayın kənarında qurulan bəndin hündürlüyü 12 metrdir.

Bütün işlər AAYDA-nın rəhbərliyinin nəzarəti altında tərtib olunmuş qrafikə uyğun aparılır. İşlərin vaxtında yekunlaşması üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb edilib.

Quba rayonunun Amsar, Nügədi, Püstəqasım, Qam-qam, Təngəaltı və başqa yaşayış məntəqələrini əhatə edən layihə yolboyu yaşayan əhalinin gediş-gəlişini asanlaşdırmaqla yanaşı, onların tədarük etdikləri kənd təsərrüfatı məhsullarını və meyvə-tərəvəzi qısa vaxtda istədikləri ünvanlara çatdırmağa imkan yaradacaq, rayonun turizm imkanlarını genişləndirəcək.

   

# Gənclik

   

Gələcəyə dəstək



**"...Bizim strateji inkişaf yolumuz var - milli dəyərlərin qorunması, müstəqilliyin möhkəmləndirilməsi, bundan sonra da heç kimdən asılı olmamaq, heç vaxt kiminsə iradəsi ilə idarə olunmamaq və uğurlu iqtisadi-sosial inkişaf, təhlükəsizlik, sabitlik, dünyaya açıq olmaq və milli maraqlarımızın qorunması. Bu, bizim strateji xəttimizdir. Bu, dəyişməz olaraq qalır, qalacaq və qalmalıdır".**

*İlham ƏLİYEV*

# Gənclik ümidimizdir

**Gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi, təhsili, istedadlarının inkişaf etdirilməsi cəmiyyət üçün əsas vəzifələrdəndir. Onlar hər bir xalqın gələcəyini və inkişaf yolunu müəyyənləşdirən, ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı qüvvədir. Təsadüfi deyil ki, müasir dövrdə gənclər sahəsində qazanılan uğurlar dövlətlərin ümumi inkişaf səviyyəsini, potensialını müəyyənləşdirən vacib meyarlardan sayılır. Dünyanın bütün sivil cəmiyyətlərində onların hərbi-vətənpərvərlik, mənəvi-ideoloji tərbiyəsinə, sağlamlığının qorunmasına xüsusi qayğı ilə yanaşılır. Onlar bizim sabahımızdır. Bir neçə ildən sonrakı dövrün ictimai mənzərəsi indi böyümədə olan nəslə yaradılmış şəraitdən, inkişaf mühitindən asılı olacaq.**

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasətində gənclərlə iş məsələlərinə xüsusi yer verilir. Dövlət rəhbərimizin diqqət və qayğısı sayəsində böyüməkdə olan nəslin cəmiyyət üçün faydalı proqramlara cəlb olunması, sağlam yaşam tərzi həyatımızda xoş bir ənənəyə çevrilib. Bütün bunlar onların fiziki sağlamlığı, zərərli vərdişlərdən uzaq durması, öz gənclik enerjilərini ölkəmiz və ümumilikdə, dünyamız üçün xeyirli məqsədlərə yönəltməsi baxımından çox önəmlidir.

Bu reallığı düzgün qiymətləndirən Ümummilli Lider Heydər Əliyev hər zaman gənclərə malik olduqları qabiliyyət və intellektual imkanlar müqabilində geniş meydan verməyin tərəfdarı kimi çıxış etmiş, bu təbəqəyə böyük inam və etibar göstərmişdir. Nəticədə xalqın gələcəyini müəyyən edən və cəmiyyətdə əhəmiyyətli çoxluğa malik olan gənclərin ehtiyaclarının dolğun ödənməsi məsələsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmuşdur. Heydər Əliyevin 1993-cü ilin 15 sentyabrında - ölkədə çox ziddiyyətli ictimai-siyasi proseslərin cərəyan etdiyi bir zamanda - gənclərlə görüşə vaxt tapması, onların problemlərini dinləməsi Ulu Öndərin Azərbaycan gəncliyinin cəmiyyət həyatındakı roluna verdiyi böyük önəmin, rəğbət və qayğının göstəricisi idi. Ümummilli Liderin hələ o zaman Milli Məclisdə gənclərlə görüşü Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi, demokratik dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi, bu nəslin ayrı-ayrı siyasi partiya və qurumların deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər edilməsi, vahid gənclər siyasətinin işlənib hazırlanması zəruriliyini ortaya qoymuşdu.

Azərbaycan gənclərinin birinci forumundan etibarən ölkədə gənclər gününün təsis olunması, bu təbəqənin problemlərinin həllinə yönələn çoxsaylı fərman və sərəncamların imzalanması, qanunların qəbulu, gənclərin dövlət quruculuğu prosesinə cəlb edilməsi ilə reallığa çevrildi. Həmin forumda Ümummilli Lider Azərbaycan gəncliyi qarşısında konkret vəzifələr müəyyənləşdirdi.

## Onlar bizim sabahımızdır

Hazırda gənc nəslin müasir dövrün bilik və bacarıqlarına yiyələnməsinə dəstək, hər kəsə bərabər imkanlar mühitinin yaradılması, onların karyera inkişafı və s. istiqamətlərdə kompleks yanaşmalar Prezident İlham Əliyevin gənclər siyasətində xüsusi yer tutur.

Bu, Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu siyasətin uğurlu davamıdır.

Ulu Öndərin yetişdirib gələcəyə ən düzgün yol göstərdiyi həmin nəsil Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün Vətənin tərəqqisinə böyük töhfələr verir. Bu nəslin təmsilçiləri güclü, inkişaf etmiş, müstəqil Azərbaycanda dünyaya göz açıblar. Əsrlərlə başqalarından asılı olduğumuz zamanlar, yaxud müstəqilliyin ilk illərindəki sıxıntılarımız, məhrumiyyətlərimiz, çarəsizliklərimiz onlar üçün böyüklərin keçmiş haqqında nəql etdikləri hekayətlərdir. Yeni nəsil Vətənin keçmişindən, ulularımızdan miras qalmış milli-mənəvi dəyərlərin işığından da uzaq düşməyib. Aparılan vətənpərvərlik təbliğatı gənclərimizin torpağa bağlılıq ruhunu daha da gücləndirib. Onlarda özünəinam hissi formalaşdırıb. Azərbaycana hansısa şəkildə fayda verməyi, ölkəmizin milli maraqlarını bütün səviyyələrdə qorumağı gənclərimiz üçün vahid amala çevirib. Bunu gənclərimizin Ermənistanın Azərbaycana qarşı işğal siyasətinə münasibətində, əsgər və zabitlərimizin döyüş ruhunda, tarixi həqiqətlərimizi müxtəlif kommunikasiya kanalları ilə dünyaya yetirən gənclərimizin əzmkarlığında duyub müşahidə edirik. Tarixi yaddaşımızın gənc təfəkkürlərdə düzgün qavranılması, onların vətənpərvərlik ruhunun güclənməsi Azərbaycan Prezidentinin gənclər siyasətinin ən böyük uğurudur.

Öz qapılarını dünyada gedən inkişaf proseslərinə açmış Azərbaycan beynəlxalq aləmin qapılarını da gəncliyin üzünə açıb. Onların belə bir dünyada gələcəklə bağlı çox mühüm vəzifələri var. Vəzifələrdən birincisi Azərbaycanın istiqlalının qorunub saxlanmasıdır. Bu, dövlətin yeni nəsillərə daha da inkişaf etdirilmiş, gücləndirilmiş şəkildə çatdırılmasıdır.

## Hər nəslin özündən sonrakılara əmanəti var

Böyük zaman tələb edən istəklərin və xoş niyyətlərin yeni nəsillər tərəfindən həyata keçiriləcəyinə hamı ümid bəsləyir. Azərbaycan gəncliyinin də bu ölkəyə müstəqillik qazandırmış, onun davamlı inkişafı üçün başlıca şərtləri təmin etmiş, bu dövlətin ərazi bütövlüyü uğrunda canından keçərək şəhidlik məqamına yüksəlmiş nəslin böyük amallarını doğrultmaq missiyası var. Azərbaycan Prezidentinin reallaşdırdığı inkişaf siyasətinin icrasında, qarşıya qoyulmuş strateji hədəflərin əldə olunmasında gənclərin enerjisinə, yaradıcı potensialına çox böyük ehtiyac var.

Prezident İlham Əliyev gənclərə güvənir, yüksək vəzifələrdə onlara etimad göstərir, savadlı, yenilikçi, vətənpərvər, məsuliyyətli insanlara həyata keçirdiyi köklü islahatların əsas hərəkətverici qüvvəsi kimi yanaşır. Gənclər də Azərbaycan Prezidentinin şəxsində, ümumən, cəmiyyətimizin ümidini doğrultmağa, öz davranışları, ortaya qoyduqları nəticələrlə bu yüksək inama layiq olmağa çalışırlar.

## Bizi güclü edən dəyərlərimizdir

Azərbaycan gəncliyinin daha bir vəzifəsi əsrlərin əmanəti olan milli-mənəvi dəyərlərimizə sahib çıxmaq, onları qorumaq, gələcək nəsillərin də bu dəyərlər işığında formalaşmasına nail olmaqdır. Gənc nəslin fiziki və düşüncə sağlamlığı qədər vətənpərvərlik ruhunda yetişdirilməsi, köklərə bağlılığı bütün dövrlərdə böyük əhəmiyyət daşıyıb. Qloballaşan dünyamızda isə bu daha mühümdür. Bizi güclü edən, milli qürur hissimizi formalaşdıran məhz dəyərlərimizdir. Milli qüruru olmayan, dəyərlərinə sahib çıxmağı bacarmayan xalq zamanın inkişaf axarında müvazinətini axıra qədər qoruyub saxlaya bilməz. Aramsız təsirlər zamanla onu aşındıraraq öz kimliyindən uzaqlaşdıracaq. Ona görə də gənclərin milli-mənəvi dəyərlərə bağlılığı qloballaşan dünyamızda, bəlkə də tarixin heç bir dövründə olmadığı qədər aktuallıq qazanıb. Dünyadakı əksər xalqlar üçün həyati vacib məsələyə çevrilib. Ona görə ki, qloballaşma prosesləri artıq hər birimizin həyatımızdadır. Özümüz də fərqinə varmadan hamımız bu prosesin bir hissəsinə çevrilmişik. İnformasiya texnologiyalarının ən son nailiyyətləri, media, mədəniyyət prosesləri, yeni dəblər, maraqlarla bu proses həyatımıza getdikcə daha güclü şəkildə nüfuz edir. Bu təsir xüsusilə gənclərin həyatında, davranışlarında daha qabarıq şəkildə özünü büruzə verməkdədir.

Qloballaşmanın gənclərimizin həyatına müsbət təsirləri çoxdur. Bu proses onların təhsilini, fərdi inkişafını, iş və karyera imkanlarını hüdudsuz edir. Azərbaycan gəncliyi dünyaya qovuşur, inkişafın mühüm bir parçasına çevrilir. Azərbaycan gənclərinin səsi düyanın nüfuzlu universitetlərindən, elmi mərkəzlərdən, qlobal korporasiyalardakı yüksək vəzifələrdən gəlir. Bunu görmək çox xoşdur. Ona görə də qloballaşma proseslərindən çəkinməməli, sadəcə bu prosesin imkanlarından bəhrələnməyi bacarmalıyıq.

Azərbaycan dövləti gəncliyə bunu təlqin edir. Yaradılan nümunələrlə onlara qloballaşma dövründə həm özlərinə, həm də Vətənə faydalı olmağın, dünyanın gələcəyində layiqli yer tutmağın yollarını göstərir. Ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESKO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr bu baxımdan müstəsna əhəmiyyət daşıyır. Mehriban xanımın milli mədəniyyət incilərimizin qorunması və dünyada təbliği, mədəniyyətlərarası dialoqa, tolerantlığa, multukultural dəyərlərin bərqərar olmasına verdiyi töhfələr, insanlara yaratdığı fərdi inkişaf imkanları gənclərimiz üçün böyük bir məktəbdir. Xalqın, dövlətin gələcəyini belə nəcib işlərin yaratdığı mühit formalaşdırır.

## Nəsillərə örnək

Mehriban xanım Əliyeva gənclərə əsl vətəndaş olmağın meyarlarını anladır. İnsanlara faydalı olmağın yollarını göstərir. Bunun real əməllərdən keçdiyini anladır.

Bu gün xeyriyyəçilik fəaliyyəti, hansısa yaxşılıqlara vəsilə olmaq arzusu gənclər arasında geniş yayılır. Xoş əməllər ortaya qoymaq, başqalarına kömək göstərmək, cəmiyyət üçün faydalı işlər görmək istəyi getdikcə daha çox oğlan və qızlarımızın həyat tərzinə çevrilir. Onlar sosiallaşırlar, nəcib niyyətlər ətrafında bir araya gəlmələri ilə müsbət nəticələr yaradırlar. Xüsusilə gənclərdə vətənpərvərlik ruhu güclənir. Bu, milli-mənəvi dəyərlərimizin təbliğində, ölkəmizin maraqlarının Azərbaycanda və xaricdə qorunmasında, ətraf mühitə qayğıda, qızların təhsildən yayındırılması, ailədaxili şiddət, zərərli vərdişlər və s. bu kimi mənfi hallara qarşı həmrəylik nümayişində özünü göstərir.

Bu, çox sevindiricidir. Deməli, Mehriban xanımın illərdən bəridir ki, böyük fədakarlıqla gördüyü işlər öz nəticəsini verir. Onun xeyirxah əməlləri işığında artıq bütöv bir nəsil yetişir. Cəmiyyətimizin gələcəyi bu dəyərlər ruhunda formalaşır.

Bu gün Azərbaycan gəncliyinin ən böyük vəzifələrindən biri oxumaq, öyrənmək, müasir dövrün bilik və bacarıqlarına yiyələnmək üçün gecənigündüzə qataraq başqalarından öndə olmaqdır. Azərbaycan Prezidenti də gəncləri buna çağırır, onların bu ruhda tərbiyələnməsini istəyir.

Gəncliyi mütəşəkkil olan xalqın, dövlətin gələcəyi hər zaman öndə olur.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

İctimai dəyər

# Könüllülük həyat tərzinə çevrilib

**Sosial müdafiə sahəsinin inkişafı hər zaman dövlətin diqqət mərkəzində olan məsələlərdəndir. Burada həyata keçirilən islahatlar vətəndaşların sosial rifahının daha da yaxşılaşdırılmasına, onlar üçün yüksək səviyyəli həyat şəraitinin yaradılmasına xidmət edir. Dövlət sosial xidmətlərində tam şəffaflığın, operativliyin, nəzakətliliyin təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunması ölkənin bu sahədəki siyasətinin əsas hədəflərindən biridir.**

 

Bu gün artıq paytaxtın 8 rayonu DOST xidmətləri ilə əhatə olunub. Vətəndaşların bu xidmətlərdən məmnunluq səviyyəsi 96 faizdir. 2019-2025-ci illərdə Bakı və ölkəmizin bölgələrində 31 DOST mərkəzinin yaradılması təmin olunacaq.

DOST mərkəzlərində "Könüllü DOST" proqramı uğurla fəaliyyət göstərir. İndiyədək bura 14500 nəfər müraciət edib, 414 nəfər isə bu proqrama qoşulub.

Könüllülük cəmiyyət üçün çox böyük bir dəyərdir. Bu, insanları vahid niyyət ətrafında birləşdirir. Vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin çox uğurlu formatı kimi özünü doğruldur. Könüllülük həm də vətənpərvərlik məktəbidir. Öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Qeyd edək ki, "Könüllü DOST" proqramı məzunlarından artıq 32 nəfəri agentliyin və DOST mərkəzlərinin əməkdaşı kimi fəaliyyətini davam etdirir.

Onlardan biri də hazırda 1 saylı Bakı DOST Mərkəzində çalışan Cəlal Sultanlıdır.

DOST-un ilk könüllülərindən olan bu gənc 2 aylıq könüllülük fəaliyyəti dövründə böyük təcrübə qazanığını, sosial sahəyə aid yeni biliklər əldə etdiyini söyləyir: "2019-cu ilin may-iyul aylarında mərkəzdə könüllü kimi çalışarkən özümə yeni dostlar tapdım, sosial cəhətdən həssas təbəqədən olan insanlarla münasibət qurmaq, onlara yaxından kömək göstərmək şansı əldə etdim. Könüllü kimi fəaliyyətimi bitirdikdən sonra burada qalıb işləmək üçün müsahibələrdən uğurla keçdim, 1 saylı Bakı DOST Mərkəzinin əməkdaşları sıralarına daxil oldum. Həssas təbəqədən olanların problemlərini dinləmək, çıxış yollarını tapmaq işimizin əsas hissəsidir. Burada qəbul etdiyimiz hər bir vətəndaşın müraciətinin vaxtında həll olunması, göstərilən xidmətlərdən məmnun qalması bizə böyük stimul verir".

Azərbaycan Dillər Universitetinin 3-cü kurs tələbəsi Mələk Qədirli ilk könüllülük fəaliyyətinə DOST Agentliyində başlayıb. O, bildirir ki, könüllülük fəaliyyəti müxtəlif sahələrdə ola bilər: əlillərə, əhalinin aztəminatlı təbəqəsinə, qocalara, qaçqın və məcburi köçkünlərə kömək, uşaq və gənclərlə iş, mədəni-tarixi sərvətlərin, ətraf mühitin qorunması, insan hüquq və azadlıqlarının, qanunçuluğun, sülh mədəniyyətinin, tolerantlığın təbliği və s. Bu fəaliyyət çoxşaxəlidir: "Könüllü olmaq insana başqaları üçün lazımlılığını hiss etdirir. Özünü inkişaf, lider bacarıqlarını mənimsəmək, müxtəlif qruplarda həmfikirləri ilə görüşmək, hər hansı problemin həllində iştirak etmək, özünü ifadə edə bilmək və doğrultmaq, vaxtını faydalı keçirmək, komanda işi bacarıqlarını mənimsəmək və s. imkanları yaradır. DOST Agentliyindəki könüllülük fəaliyyətim də mənə bu keyfiyyətləri aşıladı, gözəl dostluqlar, geniş təcrübə qazandırdı. Mehriban işçi heyəti ilə birgə maraqlı günlər keçirdim. Ən əsası bu çətin pandemiya dövründə insanlara yararlı olduğumu bildim. Bu, qəlbimdə gözəl duyğular yaratdı. Yaşlı bir vətəndaşın gülümsəməsi belə bütün gün ərzində mənə dəyərli olduğumu hiss etdirdi".

Ümumilikdə könüllülüyün qayəsi vətənpərvərlikdir. Həm yaşadığın ölkəni, həm də, ümumən, dünyanı qəlbən sevməkdir. Cəmiyyəti müsbət mənada dəyişmək, irəli aparmaqdır.

Könüllülük hərəkatının inkişaf etdirilməsi və könüllülərlə işin davamlı və sistemli aparılması üçün DOST Agentliyinin dəstəyi ilə fəaliyyətində dövlətçilik, vətənpərvərlik, innovativlik, yaradıcılıq, operativlik və əməkdaşlıq prinsiplərini rəhbər tutan "Könüllü DOST" Təşkilatının yaradılması planlaşdırılır.

***İ.ƏLİYEVA, "Azərbaycan"***

Dünyaya bir çağırış

# Məqsəd cəmiyyətə faydalı olmaqdır

**Bu gün koronavirus pandemiyası səbəbindən dünyanın inkişaf etmiş ölkələri iqtisadi, maliyyə, səhiyyə və sosial problemlərlə baş-başa qalıb. Bu xəstəlik sərhədlər tanımır və gündə yüzlərlə insan həyatını itirir. Aparıcı ölkələr belə pandemiyanın yaratdığı fəsadları aradan qaldırmaq, bu bəladan daha az itki ilə çıxmaq üçün yollar axtarır.**





Pandemiya dövründə islahatlar prosesinin genişləndirilməsi, iş yerlərinin saxlanılmasında dövlət dəstəyinin göstərilməsi, aztəminatlı ailələrin sosial müdafiəsi tədbirləri, tələbələrə edilən güzəştlər, mərhələli şəkildə imzalanan müvafiq fərman və sərəncamlar cəmiyyətin bütün təbəqəsinin sosial vəziyyətinin yaxşılaşmasına xidmət etmişdir. Dövlət başçısının müəyyənləşdirdiyi hədəflər və qarşıda duran vəzifələrin həyata keçirilməsi ilə bağlı tapşırıqları pandemiya təşvişi ilə yaşayan hər kəsə böyük ümid verdi. Görülən bütün tədbirlər Prezident İlham Əliyevin "Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində vətəndaş dayanır" fikrinin əməli müstəvidə təsdiqinin növbəti bariz təzahürüdür.

Bu arada dövlətimizin diqqətindən qaynaqlanaraq milli ruhda tərbiyə alan, xalqımızın maraqlarını layiqincə qoruyan gənc nəslin və pandemiya dövründə geniş vüsət almış könüllülər hərəkatının xüsusi əhəmiyyəti danılmazdır. Bu, cəmiyyətdə xeyirxahlıq və yeni davranış qaydaları təbliğ edir, gənclərin üzərinə böyük məsuliyyət qoyur. Hökumət tərəfindən atılan önləyici addımlar, vətəndaş həmrəyliyi Azərbaycanın bu dəhşətli pandemiyadan ən az zərərlə çıxan ölkələr sırasında olmasına zəmin yaradır.

Yaşı 70-i adlayan Sumqayıtda COVID-19-a qarşı aparılan mübarizə şəhər əhalisinin sağlamlığının qorunmasına, yayılma mexanizminin münkün qədər aşağı olmasına istiqamətlənmişdir. Ümumi bəlaya qarşı cəmiyyət birgə təpki göstərdikdə əldə edilən nəticə müsbət olur.

Şəhərin gəncləri bu böyük bəlaya qarşı mübarizədən kənarda qalmamaq üçün var güclərini sərf edirlər.

Koronavirusun yarada biləcəyi təhlükənin qarşısının alınması istiqamətində mart ayından başlayaraq şəhər gənclər və idman baş idarəsində geniş tədbirlər planı işlənib hazırlanmışdı. İlin əvvəlindən bugünədək gənclərlə iş sahəsi üzrə keçirilmiş 35 müxtəlif tədbirə 1806 nəfər cəlb edilmişdir.

Koronavirusla mübarizə tədbirləri çərçivəsində şəhər icra hakimiyyətinin təşəbbüsü ilə müxtəlif sahələri təmsil edən könüllü gənclər Sumqayıtın mərkəzi prospektlərində, ictimai nəqliyyat vasitələrində, insanların sıx hərəkət etdiyi yerlərdə hazırlanmış broşürları sakinlərə təqdim etmişlər. Maarifləndirmə istiqamətində görülən işləri könüllülər mikrorayon və məhəllə, qəsəbələrdə davam etdirmiş, pandemiyanın törədə biləcəyi təhlükənin izahını vermişlər. Bu səbəbdən əhalinin xeyli hissəsi maskalardan istifadə etmiş, karantin qaydalarına ciddi yanaşmışlar. Sumqayıtlı könüllülər şəhər ərazisində yaşayan əhalinin həssas təbəqəsinə aid olan ailələrə müntəzəm olaraq baş çəkmiş, hər cür yardımlar göstərmişlər. İlk günlərdə könüllülər bu insanlara dezinfeksiyaedici məhlullar, gigiyenik vasitələr, tibbi maskalar paylamış, kommunal problemlərin həllini, ərzaq yardımı və sosial təminatla bağlı elektron portalda qeydiyyata düşməyə köməklik etmişlər.

Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin könüllüləri aztəminatlı ailələrə müxtəlif təşkilatlar tərəfindən hazırlanmış zəruri ərzaqları çatdırır, onların gündəlik tələbatla bağlı problemlərinin həllində yardımçı olurlar. Bu günədək onlar minlərlə ailəyə belə köməklər etmişlər. Gənc könllülərin bu fəaliyyəti indi də davam etdirilir.

Sumqayıt sakinləri gəncliyə böyük dəyər verir. Şəhərin bütün sahələrində onların işləri görünməkdədir, həyata keçirilən layihələrdə fəaliyyətləri öz əksini tapmaqdadır. Karantin gövründə bu siyahıda özünə yer eləyən bir neçə istiqamətdə iş aparılıb. Könüllülər əhalinin daha çox toplaşdığı yerlərdə onlarla fərdi qaydada söhbətlər aparır, eyni zamanda sakinlərə ərzaq yardımlarını təqdim edirlər.

Operativ Qərargahın qərar və tövsiyələrinin təbliği, şəxsi gigiyena qaydalarına əməl etmək kimi normaları insanlarımıza başa salmaq məqsədilə şəhərin müxtəlif sahələrini təmsil edən könüllü gənclər küçə və prospektlərdə maarifləndirici aksiyalar keçirirlər. Gənclərə şəhər rəhbərliyi daim dəstək olur. İcra hakimiyyətinin təşəbbüsü ilə Sumqayıt Bulvarında, Nəsimi adına Mədəniyyət və İstirahət parkında könüllü gənclər bir neçə qrupa ayrılaraq əhali arasında qaydalara riayət edilməsinə çağırışlar edirlər. Marketlərin önündə, dayanacaqlarda könüllülər insanlara indiki şəraitdə sağlamlğın qorunmasının vacibliyini anladırlar.

Karantin dövründə Azərbaycan tarixinin təbliği, gənclərdə vətənpərvərlik və vətəndaşlıq ruhunun aşılanması istiqamətində işlər də həyata keçirilir. Prezident təqaüdçüsü, Qarabağ qazisi, ikiqat paralimpiya çempionu, "Şöhrət" ordenli İlham Zəkiyev ilə məsafə saxlanmaqla keçirilən görüş sakinlərin böyük marağına səbəb olmuşdur.

Qarşıdan yeni tədris ili gəlir. Bu il dərslər əvvəlkilərdən tamamilə fərqli istiqamətdə aparılacaq. Tədris müəssisələrində dezinfeksiya işləri görülür və sinif otaqları yeni dərs ilinə hazırlanır. Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin əməkdaşları və könüllüləri bu kampaniyada fəallıq göstərirlər. Xüsusi layihə də hazırlayıblar. Özləri gənc olmalarına baxmayaraq, kiçikyaşlıların sağlam ruhda böyümələri üçün bütün vasitələrdən istifadə edirlər. Yeni dərs ilində şəhər gənclər və idman idarəsinin əməkdaşları məktəblərdə dərslərin karantin qaydalarına uyğun keçirilməsinə nəzarəti öz üzərlərinə götürmüşlər.

"Könüllülər ili"nin formalaşdırdığı ənənələr və dəyərlər ölkəmizin bu günü və gələcəyinə böyük töhfə olacaq.

***Akif ƏLİYEV, "Azərbaycan"***

Tribuna

# Vətən sevgisinin gücü

**Ölkəmizdə dövlət gənclər siyasətinin əsas hədəflərindən biri xalqı, vətəni, milləti, böyük qurbanlar bahasına qurulan müstəqil Azərbaycanı canından artıq sevən, yüksək intellektual potensiala malik yeni vətənpərvər nəsil yetişdirməkdir. Cəbhə bölgəsi olan Tərtərdə yaşayıb işləyən gənclər üçün bu istiqamət xüsusilə önəmlidir. Qarabağ savaşında Tərtərin igid oğulları əsl qəhrəmanlıq nümunəsi göstərərək şərəfli bir tarix yazdılar. Məkrli qonşularımız olan erməni faşistləri ilə qeyri-bərabər döyüşlərdə çoxsaylı qurbanlar versələr də, düşmənə bir qarış da olsun torpaq güzəşt etmədilər.**



Qanımızla qoruduğumuz torpaqları bu gün min bir həvəslə əkib-becərir, bol kənd təsərrüfatı məhsulları istehsal edir, ölkə iqtisadiyyatının möhkəmlənməsinə sanballı töhfələr veririk. Düşmənin vaxtaşırı törətdiyi təxribatlar, atəşkəsin tez-tez pozulması təbii ki, erməni işğalçılara olan nifrətimizi daha da artırır, bizi ayıq-sayıq olmağa sövq edir.

Tərtərli gənclər Ümummilli Lider Heydər Əliyevin siyasi kursuna yenilməz sədaqətlərini tarixin bütün məqamlarında öz fədakarlıqları ilə sübut edirlər. Döyüş cəbhəsində olduğu kimi, əmək meydanında da gənclərimiz parlaq nümunə göstərirlər. Son illər Tərtər rayonu taxıl, pambıq, barama, meyvə-tərəvəz, digər kənd təsərrüfatı məhsulları istehsalı sahəsində respublikanın qabaqcıl təcrübə məktəbinə çevrilmişdir. Prezident İlham Əliyev bölgəyə çoxsaylı səfərləri zamanı tərtərli gənclərin Qarabağ savaşlarındakı sücaətinə, əmək meydanında qazandığı nailiyyətlərə yüksək dəyər vermişdir. Təbii ki, bu qiymət gücümüzə güc qatır, ölkəmizin daha işıqlı sabahlarına olan inamımızı artırır, dövlət başçısının ətrafında daha sıx birləşməyimizə stimul verir.

Biz tərtərli gənclər Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz naminə reallaşdırdığı unudulmaz tarixi xidmətləri hər zaman minnətdarlıqla xatırlayırıq. Heydər Əliyev Azərbaycan gəncliyinə hər zaman inanıb və etibar edib. Ulu Öndərin dəyərli tövsiyələri yaddaşımıza həkk olaraq həyatda bizə yalnız doğru yol göstərir. Milli mənlik hər bir adamın özünün mənsubiyyətini ətraflı dərk etməsinə imkan yaradır. Belə insanlar həyatın heç bir hadisəsinə laqeyd qalmır. Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir. Onu xalq üçün müəyyən fəaliyyət göstərməyə sövq edir.

Azərbaycan gənclərinin milli və vətənpərvər ruhda tərbiyəsinə həyatı boyu böyük önəm verən Heydər Əliyev nitqlərinin birində deyirdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik".

Ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü və müvafiq sərəncamı ilə 2020-ci il "Könüllülər ili" elan olunmuşdur. Bu, ölkənin ictimai-siyasi həyatında gənclərin fəallığını yüksək səviyyədə təmin etməyə hesablanan bir siyasi qərardır, Azərbaycan gəncliyinin qüdrətinə, əzminə, iradəsinə inamın göstəricisidir. Bu etimad bizə ruh verir, hansı sahədə çalışmağımızdan asılı olmayaraq vətən, xalq, dövlət uğrunda hər cür fədakarlığa hazır olmağımızı şərtləndirir. Təvazökarlıqdan uzaq olsa da, deməliyəm ki, Tərtər könüllüləri pandemiya dövründə, sözün həqiqi mənasında, hünər göstərirlər. Biz mobil dəstələrə bölünərək imkansız ailələrə, tənha yaşayan ahıl xəstələrə baş çəkir, sovqat çatdırır, qayğı və diqqət göstərir, əhali arasında maarifləndirmə işi aparırıq.

Bu gün Tərtərdə sağlam mənəvi-psixoloji mühit mövcuddur. Gənclərimiz Qarabağ uğrunda müqəddəs savaşa hər an hazırdırlar. Doğma yurdun hər qarışını cənnətə döndərməyə çalışan vətən sevdalılarını qarşıda yeni uğurlar gözləyir.

***Tünarə MƏMMƏDZADƏ, YAP Tərtər rayon təşkilatı Gənclər Birliyinin sədri***

## Biz birlikdə güclüyük!

# Azərbaycan dövlətinin ali məqsədi vətəndaşlarının sağlamlığı və təhlükəsizliyidir

### Ölkəmiz COVID-19-la mübarizədə uğurlu işlər görür, qəbul edilmiş qərarlar vaxtında və yüksək keyfiyyətlə icra olunur

*Əvvəli 1-ci səh.*

### Pandemiya dövründə ölkəmizdə yeni xəstəxanaların tikintisi geniş vüsət alıb

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, ilk növbədə, ölkə səhiyyəsi koronavirusla səmərəli mübarizə üçün tələb olunan standartlara uyğunlaşdırılıb. Yeni tibb müəssisələri açılıb, modul tipli xəstəxanalar quraşdırılıb. 600 yerlik "Yeni Klinika"nın açılması, 11 modul tipli xəstəxananın inşa edilməsi, bu xəstəxanalarda 4100 çarpayı sayının olması COVID-19 ilə aparılan mübarizədə çox önəmli rol oynayıb.

Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında videoformatda iştirak edən Prezident İlham Əliyev tibb sahəsində görülən işlərə toxunaraq bildirdi ki, pandemiya dövründə ölkəmizdə yeni xəstəxanaların tikintisi geniş vüsət alıb: "... Onu da bildirməliyəm ki, modul tipli 7 xəstəxananın tikintisi nəzərdə tutulub. Amma hazırda buna ehtiyac yoxdur. Çünki ölkəmizdə xəstələrin sayı azalır və əgər ehtiyac yaranarsa, qısa müddət ərzində əlavə 1400 çarpayılıq xəstəxanalar inşa oluna bilər. Ehtiyat variantı kimi biz ölkəmizin iki olimpiya kompleksini də xəstəxanalara çevirdik və orada da 300-dən 500-ə qədər xəstə müalicə ala bilər".

Dövlət başçısı vurğuladı ki, bütün bunlar bir daha onu göstərir ki, COVID ilə mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət aparır, qəbul edilmiş qərarlar vaxtında və yüksək keyfiyyətlə icra edilir.

### Seroloji testlər karantin rejiminin davam edib-etməməsi üçün ən optimal yanaşma imkanı verəcək

Koronavirusla effektiv mübarizə infeksiyaya yoluxma hallarının erkən müəyyənləşdirilməsindən də birbaşa asılıdır. Bu istiqamətdə də dövlətimiz düzgün fəaliyyət planı həyata keçirir. COVID-19-un müəyyənləşdirilməsi üçün əlavə müasir tibbi laboratoriyalar alınıb, yüksək keyfiyyətli testlərlə təchiz edilib. Hazırkı dövrə qədər ölkəmizdə 935 mindən çox test keçirilib ki, bu da adambaşına düşən testlərin sayına görə, ölkəmiz dünya miqyasında qabaqcıl yerlərdən birini titur.

Onu da bildirək ki, COVID-19-la əlaqədar bütün dünyada, o cümlədən Azərbaycanda seroloji testlərin tətbiqinə başlanılıb. Könüllülük prinsipi əsasında həyata keçirilən skrininqlərlə əlaqədar indiyədək 300-ə yaxın test alınıb və onlardan 200-ü işlənib. Həmin skrininqlər Gəncə və Sumqayıt şəhərlərində də aparılacaq. Burada əsas məqam digər respirator xəstəliklərlə COVID-19 infeksiyasını ayırd etməkdir. Seroloji testlər ölkədə əhali arasında immunitet səviyyəsini öyrənməyə imkan verəcək. Testlər 18 yaşdan yuxarı vətəndaşlar arasında aparılır. Seroloji testlərlə bağlı ətraflı məlumat verən Mərkəzi Neftçilər Xəstəxanasının həkim-infeksionisti Fərrux Sədirov deyib ki, irəlidə hədəf qrupları və bölgələrə görə testlərin aparılması davam edəcək: "İndiyədək dövlətin koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar apardığı testlər nəticəsində 35 minə yaxın yoluxma olduğu aşkar edilib. Lakin xəstəliyi heç bir simptomu və şikayəti olmadan keçirənlər var ki, onlar təbii olaraq səhiyyə müəssisələrinə müraciət etməyiblər. Ona görə də xəstəliyi nə qədər vətəndaşın keçirib-keçirmədiyi məlum deyil. Seroloji testlərin aparılması xəstəliyi keçirmə faizinin həqiqiliyini ortaya çıxaracaq. Testlərin nəticələri COVID-19-la mübarizədə mərhələli şəkildə yumşalma prinsiplərinin tətbiqi və ya karantin rejiminin davam edib-etməməsi üçün ən optimal yanaşma imkanı verəcək. Məsələn, cənub bölgəsində seroloji testlərin nəticəsi əhalinin 80 faizinin xəstəliklə təmas edib immunitet qazandığını aşkar edibsə, həmin bölgə riskli bölgə sayılmayacaq. Deməli, həmin bölgədə mərhələli şəkildə yumşalmalara getmək olar və bu, yoluxma sayında artıma səbəb olmayacaq".

### Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir

Azərbaycanda tətbiq olunan qaydalar, vəziyyətə uyğun şəkildə atılan addımlar və karantin rejimi öz səmərəsini verir. Koronavirusla mübarizə istiqamətində həyata keçirilən zəruri tədbirlər hazırda respublikamızda sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verib. Eyni zamanda vətəndaşların məsuliyyətli davranışının, qoyulan qaydalara riayət etməsinin də bu nailiyyətdə payı çoxdur.

Sadalanan hallarla əlaqədar virusa yoluxma sayında müşahidə edilən kəskin azalma yumşalmalara keçidə də təkan verdi. Təkcə avqust ayında yumşalma tədbirlərinin sayı 3-ə çatmış və müsbət dinamika davam edərsə və xəstələrin sayında artım olmazsa, yumşalma tədbirlərinin davam etdirilməsi də labüd olacaqdır.

Amma təəssüf ki, vəziyyətin ciddiliyini anlamayaraq, məsuliyyətsiz addımları ilə insanların sağlamlığını təhlükəyə atan insanlara da rast gəlinir. Amma belə hallar aşkarlananda mütləq ictimai vəziyyətinə, statusuna baxmayaraq, qayda pozanların hər birinə qarşı cəza tədbirləri görülür. Çünki qanun qarşısında hamı bərabərdir.

Dövlət başçımız modul tipli yeni hospitalın açılışındakı çıxışında bütün vətəndaşları məsuliyyətə çağıraraq vurğuladı ki, Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir: "Hesab edirəm ki, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Heç kim qanundan üstün ola bilməz, heç kimdə heç bir imtiyaz ola bilməz və heç kimə heç bir güzəşt edilmir və edilməyəcək".

### Dövlətin düşünülmüş addımları, vətəndaşların məsuliyyəti normal həyata qayıdışı sürətləndirə bilər

Göründüyü kimi, COVID-19-a yoluxma sayının qısa zamanda nəzarətolunan həddə salınması dövlətimizin pandemiya ilə uğurlu mübarizəsinin bariz nümunəsidir. Yeni növ koronavirusla bağlı dünya statistikasına nəzər saldıqda da görürük ki, ölkəmizdə əldə edilmiş nəticələr olduqca təqdirəlayiqdir. Xəstəliyin geniş vüsət almasına, vəziyyətin nəzarətdən çıxmasına imkan verilməməsi istiqamətində görülən effektiv tədbirlər nəticəsində minlərlə insanın həyatı qorunub. ÜST nümayəndələri də dəfələrlə ölkəmizin pandemiya ilə bağlı düzgün qərarlar qəbul etdiyini bildirir, əldə olunan nailiyyətləri nümunə göstərir.

Təbii ki, respublikamızda da digər ölkələrin nümunəsinə uyğun olaraq tam açılım təmin edilə bilərdi. Amma vətəndaşların sağlamlığı və təhlükəsizliyi Azərbaycan dövləti üçün əsas prioritetdir. Buna görə də yumşalma addımları ölkədəki epidemioloji vəziyyətin təhlilinə uyğun atılır.

Beynəlxalq təcrübə də sübut edir ki, məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlərin mərhələli şəkildə həyata keçirilməsi daha məqsədəuyğundur.

Buna görə də ölkə rəhbərinin də söylədiyi kimi, dövlətin qətiyyətli və düşünülmüş ədalətli addımları, vətəndaşların məsuliyyəti imkan verəcək ki, bu ağır vəziyyətdən az itkilərlə çıxaq və daha tez bir zamanda normal, adi həyata qayıdaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# "Dəniz kuboku" müsabiqəsinə yekun vurulub





"Beynəlxalq Ordu Oyunları - 2020" yarışları çərçivəsində keçirilən "Dəniz kuboku" müsabiqəsinə yekun vurulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iştirakçı ölkələrin hərbi dənizçiləri Xəzər dənizinin döyüş hazırlığı poliqonunda "Hava hədəfinə artilleriya atışı", "Xilasetmə vasitələrinin istifadəsi", "Gəminin lövbərə və çəlləyə durması" çalışmalarını icra ediblər.



Beynəlxalq hakimlər briqadası tərəfindən qiymətləndirmə aparılıb. Keçirilən ümumi mərhələlərin yekun nəticələrinə əsasən Azərbaycan və Rusiya hərbi dənizçiləri bərabər bal toplayaraq müsabiqənin qalibi olublar.

"Dəniz kuboku" müsabiqəsinin bağlanış mərasimi və qalib komandaların mükafatlandırma mərasimi sentyabrın 4-də keçiriləcək.

## AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
## AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

2020-ci il üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 avqust 2020-ci il tarixli 493 s nömrəli sərəncamı ilə təsdiq edilmiş plana əsasən aşağıdakı ixtisaslara doktorant və dissertant hazırlığı üzrə

**QƏBUL ELAN EDİR**

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | | | | | Elmlər doktoru proqramı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktoranturaya qəbul planı | | | | | Dissertanturaya qəbul planı | | | Doktoranturaya qəbul planı | | | | | Dissertanturaya qəbul planı | | |
| | | Cəmi | o cümlədən | | | | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | | | | Cəmi | o cümlədən | |
| | | | Büdcə hesabına | | Ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla | | Büdcə hesabına | | ödənişli əsaslarla | | | Büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 1211.01 | Diferensial tənliklər | 1 | | 1 | | | | | | | | | | | | | |
| 2220.01 | Yarımkeçiricilər fizikası | | | | | | 1 | | 1 | | | | | | 1 | | 1 |
| 2301.01 | Analitik kimya | 1 | | 1 | | | | | | | | | | | | | |
| 2303,01 | Qeyri-üzvi kimya | | | | | | | | | | | | | | | | |
| 2411,01 | İnsan və heyvan fiziologiyası | 1 | 1 | | | | 1 | | 1 | | | | | | 1 | | 1 |
| 5502.01 | Ümumi tarix | | | | | | 1 | | 1 | | | | | | | | |
| 5503.02 | Vətən tarixi | 1 | | | | 1 | | | | | | | | | | | |
| 5704.01 | Dil nəzəriyyəsi | 1 | | 1 | | | | | | | | | | | | | |
| 5706.01 | Azərbaycan dili | 2 | 1 | 1 | | | | | | | | | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | | | 1 | | | | | | | | | 1 | 1 | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) | | | | | | | | | | | | | | | | |
| 5801.01 | Kimyanın tədrisi metodikası | 1 | 1 | | | | | | | | | | | | | | |
| 5801.01 | Fizikanın tədrisi metodikası | 1 | 1 | | | | | | | | | | | | | | |
| 5801.01 | Tarixin tədrisi metodikası | 1 | | 1 | | | | | | | | | | | | | |
| 5801.01 | Coğrafiyanın tədrisi metodikası | 1 | | 1 | | | | | | | | | | | | | |
| 5801.01 | Ədəbiyyatın tədrisi metodikası | 1 | | 1 | | | 1 | | 1 | | | | | | | | |
| 5801.01 | Riyaziyyatın tədrisi metodikası | 1 | 1 | | | | | | | | | | | | | | |
| 5801.01 | Texnologiyanın tədrisi metodikası | 2 | 1 | | | 1 | | | | | | | | | | | |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | 2 | 1 | 1 | | | | | | | | | | | 1 | 1 | |
| 5803.01 | Müəllim hazırlığı və fəaliyyəti | 1 | | 1 (LDU üçün) | | | | | | | | | | | | | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 3 | 1 | 1 | | 1 | 2 | | 2 | | | | | | 1 | | 1 (BTİA üçün) |
| 5805.01 | Korreksiya pedaqogikası | 1 | | 1 | | | 1 | | 1 | | | | | | | | |
| 6107.01 | Ümumi psixologiya | 1 | | 1 | | | | | | | | | | | | | |
| | **Cəmi:** | 24 | 8 | 12 | | 4 | 7 | | 7 | | | | | | 5 | 2 | 3 |

**Qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**

- Rektorun adına ərizə;
- Kadrların şəxsi qeydiyyat vərəqi;
- Tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 ölçüdə);
- İş yerindən xasiyyətnamə;
- İş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- Çap olunmuş elmi əsərlərin siyahısı (və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisas üzrə referat);
- Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun (bakalavriat və magistratura təhsil səviyyələri üzrə diplomların surətləri və diploma əlavə) müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);
- "Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (Elmlər doktoru proqramı üzrə);
- Şəxsiyyəti təsdiq edən sənədin surəti

**QEYD:** Xarici dil (ingilis, alman və fransız dillərindən biri) fənnindən imtahan Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir.

Dissertanturaya qəbul olunmaq istəyən şəxslər ən azı 2 il elmi və ya elmi pedaqoji staja malik olmalıdırlar.

Sənədlər 25 sentyabr 2020-ci il tarixə qədər şənbə və bazar günlərindən başqa hər gün saat 10:00-dan 16:00-a kimi ADPU-da qəbul edilir. Qəbul imtahanları 1 oktyabr - 6 noyabr 2020-ci il tarixlərdə keçiriləcəkdir.

**Əlaqə tel: (+99412)493-05-85, 465-81-53**
**Ünvan: AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 68, ADPU, otaq 210**

**http://adpu.edu.az/**

## Azərbaycanda koronavirusa 167 yeni yoluxma faktı qeydə alınıb, 148 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 167 yoluxma faktı qeydə alınıb, 148 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 36 min 899 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 34 min 264 nəfər müalicə olunaraq sağalıb, 541 nəfər vəfat edib. Aktiv xəstə sayı 2094 nəfərdir.

Ötən müddət ərzində 942 min 265 test aparılıb. Dünənki test sayı isə 6869-dur.




## Brüsseldə Serbiya və Kosovo liderləri arasında danışıqlar keçiriləcək



Sentyabrın 7-də Brüsseldə Avropa İttifaqının vasitəçiliyi ilə Serbiya və Kosovo liderləri arasında danışıqlar keçiriləcək. Bu barədə Avropa Komissiyasının mətbuat katibi Peter Stano gündəlik brifinqdə bildirib.

Serbiya Prezidenti Aleksandr Vuçiçlə Kosovonun Baş naziri Avdullah Hotinin danışıqlarında Avropa İttifaqının diplomatiyasının rəhbəri Jozep Borrel və Aİ-nin xüsusi elçisi Miroslav Layçak da iştirak edəcəklər.

Gündəliyin əsas məsələləri Serbiya və Kosovo arasında münasibətlərin normallaşdırılması, etnik serblərin və Kosovo albanlarının vəziyyəti, qarşılıqlı maliyyə iddiaları və əmlak məsələləri olacaq.

Liderlərin görüşündən əvvəl məcburi köçkünlər və itkin düşmüş şəxslər və iqtisadi əməkdaşlıq məsələləri üzrə ekspert səviyyəsində danışıqlar aparılacaq.

# Beynəlxalq aləm

## Liviyanın qərbində növbəti kütləvi məzarlıq aşkarlanıb



Liviyanın qərbindəki Tərxuna əyalətində Xəlifə Həftər qurbanlarının növbəti kütləvi məzarlığı aşkar edilib. Bu barədə "Anadolu" agentliyinə Liviyanın Milli Barışıq Hökuməti yanında qurbanların axtarışı və identifikasiyası İdarəsinin nümayəndəsi Əbdüləziz Cəfəri məlumat verib. "Cəsədlərin dəqiq sayı hələ müəyyənləşdirilməyib. İki nəfərin qalıqlarını çıxara bildik", - deyə o bildirib.

Martın 25-də başlanmış "Sülh fırtınası" əməliyyatı çərçivəsində Liviya ordusu Trablis əyalətinin bütün ərazisinə, iyunun 5-də isə Tərxuna əyalətinin inzibati mərkəzi üzərində nəzarəti təmin etmişdir.

Bundan əvvəl Liviya hökuməti Xəlifə Həftərin qanunsuz silahlı dəstələrindən təmizlənmiş rayonlarda 11 kütləvi məzarın aşkar edildiyini bildirmişdi.

## Dünyanın ən bahalı futbolçusu koronavirusa yoluxub



Dünyanın ən bahalı futbolçusu, Fransanın "Pars Sen-Jermen" klubunun braziliyalı hücumçusu Neymar koronavirus infeksiyasından qaça bilməyib.

Fransız qəzeti "L'Equipe" Neymarın İspaniyanın İbitsa adasında keçirdiyi istirahətdən sonra xəstələndiyi barədə xəbər verir. Məlumata görə, onun klub üzrə daha iki həmkarı - yarımmüdafiəçilər Leandro Paredes və Anxel Di Mariya da COVID-19-a yoluxublar.

Oyunçuların vəziyyəti haqqında heç bir məlumat verilmir, yalnız onların karantində olduğu bildirilir. Komandanın digər oyunçuları koronavirus üçün kütləvi şəkildə yoxlanılır.

## Sofiyada etiraz aksiyalarında 35 nəfər saxlanılıb



Bolqarıstanın paytaxtı Sofiyada "böyük xalq üsyanı" adlı etiraz aksiyaları zamanı polislər 35 nəfəri saxlayıblar. Bu barədə keçirdiyi brifinqdə paytaxt polisinin direktoru Georgi Həciyev məlumat verib.

"Etiraz aksiyaları zamanı hüquqazidd hərəkətlərə görə 35 nəfər saxlanılıb, onlardan 30-u müxtəlif cinayətlər törətmiş şəxslər kimi polisdə tanınır. Aksiya iştirakçıları polislərə qarşı gözyaşardıcı qazdan istifadə edib, onlara müxtəlif əşyalar atıblar. 27 polis əməkdaşı xəsarət alıb və xəstəxanalara aparılıb, 100-ə yaxın asayiş keşikçisi isə yerindəcə yardım alıb", - deyə Həciyev bildirib. O, polislərin gözyaşardıcı qazdan istifadə etməsini "göstərilən təcavüzə təbii müdafiə reaksiyası" kimi qiymətləndirmiş, polisin qanun çərçivəsində fəaliyyət göstərdiyini vurğulamışdır.

"Bu gün Bolqarıstan polisi Konstitusiya qaydasını dəstəkləyərək, qanun tərəfində idi. Gərginliyin artmasına imkan vermədik. Bolqarıstan vətəndaşlarını təxribata uymamağa və qanuna riayət etməyə çağırıram", - deyə Həciyev əlavə edib.

Sofiya Səhiyyə Müfəttişliyinin direktoru Danço Pençev bildirib ki, hökumət əleyhinə etirazların azı 45 iştirakçısı və polis əməkdaşları müxtəlif zədələr və kimyəvi yanıqlar alıblar.

Zərərçəkənlər arasında jurnalistlər də var.

## Sumqayıt Şəhər İcra Hakimiyyəti 2020-ci ildə 311150 - "Maşın və avadanlıqlar" maddəsi üzrə satınalınan bütün növ elektroavadanlıqların satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı 200 manatdır.**

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**VÖEN: 2900054881**
**Büdcə səviyyəsinin kodu 7y**
**İqtisadi təsnifat 142330**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **07 oktyabr 2020-ci il saat 15:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **15 oktyabr 2020-ci il saat 17:00-a** qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **16 oktyabr 2020-ci il saat 15:00-da** Portalda açılacaqdır.

Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - "Aztelekom" MMC tərəfindən dezinfeksiya, deratizasiya və dezinseksiya işlərinin satın alınması.

**İştirak haqqı: 50 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını **"ASAN ödəniş" sistemi** vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti -187**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **25 sentyabr 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **05 oktyabr 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **06 oktyabr 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## Ermənistan ordusu iriçaplı pulemyotlardan və snayper tüfənglərindən istifadə etməklə atəşkəsi 46 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 46 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Əlibəyli, Ağdam və Koxanəbi kəndlərində, Yeğeqnadzor rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndində, Vayk rayonunun Xndzorud kəndində yerləşən mövqelərdən Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Yuxarı Buzqov kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## BDU-nun yataqxanasında ölüm və xəsarətlə nəticələnən zəhərlənmə faktı üzrə cinayət işinin istintaqı tamamlanıb

2019-cu il noyabrın 21-də Bakı Dövlət Universitetinin 2 saylı yataqxanasında universitetin tələbələri - 1999-cu il təvəllüdlü Şəkər Xasmətovanın zəhərlənərək ölməsi, 1998-ci il təvəllüdlü Dilrubə Quliyevanın və Həmidə İbadovanın isə zəhərlənərək həyat üçün təhlükəli olan ağır zərər vurmaya aid xəsarət almaları faktı ilə bağlı Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanmaqla Baş Prokurorluğun İstintaq İdarəsində istintaq aparılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumata görə, istintaqla yataqxananın komendantı və tələbə şəhərciyinin direktoru vəzifəsini icra edən Pərvaz Əsgərovun işinə və xidməti vəzifəsinə vicdansız və laqeyd münasibət bəsləyib vəzifəsini yerinə yetirməyərək, yataqxananın birinci mərtəbəsində yerləşən ümumi hamam otağında özbaşına axar su qızdırıcılarının və onlara birləşdirilmiş tüstü bacalarının düzgün quraşdırılmasını, onlara müvafiq texniki xidmət göstərilməsini təmin etməyərək, ehtiyatsızlıqdan 2 nəfərin ağır zərər vurmaya aid xəsarət almasına, 1 nəfərin isə ölümünə səbəb olmasına əsaslı şübhələr müəyyənləşdirilib.

Pərvaz Əsgərov Cinayət Məcəlləsinin 314.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq, ona ittiham elan edilib və barəsində başqa yerə getməmək haqqında iltizam növündə qətimkan tədbiri seçilib.

Cinayət işinin istintaqı sentyabrın 2-də tamamlanaraq baxılması üçün aidiyyəti üzrə Yasamal Rayon Məhkəməsinə göndərilib.


## OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN"

### *qəzetinə abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*4 aylıq*
**41,60 (qırx bir manat altmış qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*1 aylıq*
**10,40 (on manat qırx qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## B İ L D İ R İ Ş

Samux Şəhər İnzibati Ərazi Dairəsi üzrə İcra Nümayəndəliyi tərəfindən 08.05.2020-ci ildə elan olunmuş Samux şəhəri daxilində yol və küçələrin təmiri işləri üzrə keçirilən açıq tenderin qalibi "ƏRDAGI" MMC olmuşdur.

Qalib təşkilatla 383,658,85 manat dəyərində müvafiq müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı maşın və avadanlıqların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 07 sentyabr 2020-ci il saat 17:00-dək qəbul olunur. Kotirovka sorğusunun təklif zərfləri 08 sentyabr 2020-ci il saat 11:00-da Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyli küçəsi, 80 nömrəli ünvanda açılacaqdır.

Maraqlanan qurumlar əlaqələndirici şəxs Qasımov İsgəndər - (012) 493-88-14 və ya (050) 275-19-91 nömrəli telefonlarla və ya **qasimovi@mail.ru** email ünvanı ilə əlaqə saxlaya bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən etender.gov.az portalında 29.04.2020-ci il tarixdə elan edilmiş birillik outstaffing xidmətlərinin satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "FİNANCİAL CHAİN CORPORATİON" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "FİNANCİAL CHAİN CORPORATİON" MMC arasında 31.08.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi intensiv meyvə bağlarının yaradılması və təsərrüfatların təhvil verilməsi ilə bağlı malların (işlərin, xidmətlərin) satın alınması üzrə təkliflər sorğusu həyata keçirir

Maraqlanan təşkilatlar (012) 497-71-34 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 11 sentyabr 2020-ci il saat 12:00 tarixədək qəbul olunur.

İddiaçıların təklifləri 11 sentyabr 2020-ci il saat 15:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti santexnika mallarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 11 sentyabr 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Elçin İbrahimova anası

**LƏTİFƏ İBRAHİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti və tənzimlənməsi şöbəsinin müdiri Elçin İbrahimova anası

**LƏTİFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7372
Sifariş 2060
Qiyməti 40 qəpik